

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

"Nikol Paşinyan bu addımı ilə öz sələflərinin irqçi siyasətini davam etdirir"



9

SƏS

№ 003 (7171)

9 yanvar 2025-ci il.
Qiymәti 60 qәpik

# "Xalqlarımız çox sıx tellərlə bir-birinə bağlıdır"



2

Prezident İlham Əliyev İranın Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibini qəbul edib

# Sülh üçün silahlanma?



5

## Kanada üçün "cəhənnəmdə qartopu"



3

## "Biz çox şeyi unudub telefona yapışdıq"



11

## "Azərbaycanda boşanmaların əsas səbəbkarları qadınlardır"



12

## Telefon oğruları tutuldu



16

## Qrip virusu Britaniyanı cənginə alıb - xəstəxanalarda yer tapılmır...



16

# "Xalqlarımız çox sıx tellərlə bir-birinə bağlıdır"

## Prezident İlham Əliyev İranın Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibini qəbul edib

**_Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də İran İslam Respublikasının Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Əkbər Əhmədianı qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Əli Əkbər Əhmədianın ölkəmizə səfərinin əlaqələrimizin inkişaf perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi._**

Qəbula görə minnətdarlığını bildirən qonaq qeyd etdi ki, dost və qardaş Azərbaycana səfər etməkdən məmnunluq duyur. Əli Əkbər Əhmədian İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın Ali Rəhbərinə və Prezidentinə çatdırmağı xahiş etdi.

Əli Əkbər Əhmədian vurğuladı ki, regionda Azərbaycan ilə İranın mədəni, tarixi, dini, o cümlədən sivilizasiya əlaqələrinin oxşarı yoxdur və bu cür qədim əlaqələrə malik iki ölkə tapmaq mümkün deyil. O, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsini, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunmasını qeyd edərək, bu münasibətlə təbriklərini çatdırdı və bütün bunlara görə çox sevindiklərini dedi. Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Prezident İlham Əliyev xalqlarımızın çox sıx tellərlə bir-birinə bağlı olduğunu deyərək, iki dövlət arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafının vacibliyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, ölkəmiz İran İslam Respublikası ilə əlaqələrin bütün sahələrdə inkişafına həmişə xüsusi əhəmiyyət verir. İranda yeni prezident seçkilərindən sonra Azərbaycanın bir neçə yüksəksəviyyəli nümayəndə heyətinin bu ölkəyə səfər etdiyi məmnunluqla xatırlandı.



Azərbaycan Prezidenti İlham Əliyev ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması və torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı təbriklərə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Ermənistan işğal dövründə Azərbaycanın həmin ərazilərini darmadağın edib, mədəni və dini abidələrimizi, o cümlədən məscidlərimizi təhqirə məruz qoyub, ibadət ocaqlarında donuz və inək saxlayıb.

Prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz regional məsələlərin region dövlətləri tərəfindən həll edilməsinin tərəfdarıdır və bu xüsusda regional əməkdaşlıq xarakteri daşıyan 3+3 formatının təşəbbüskarı da məhz Azərbaycan Respublikası olub. Regiondankənar xarici qüvvələrin regiona cəlb edilməsinin qəbuledilməz olduğu bir daha qeyd edildi.

Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsinin və bu baxımdan Azərbaycan, Rusiya və İran arasında üçtərəfli əməkdaşlıq formatının vacibliyinə toxunuldu, Azərbaycanda bu istiqamətdə böyükhəcmli yüklərin olduğu bildirildi. Həmçinin "Araz dəhlizi" layihəsi və bu çərçivədə Ağbənd məntəqəsi istiqamətində, Araz çayı üzərində körpülərin və yol-nəqliyyat infrastrukturunun tikintisi ilə bağlı fikir mübadiləsi aparıldı, bu layihənin də regional nəqliyyat bağlantılarının inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığı qeyd edildi. Azərbaycan ilə İran arasında Araz çayı boyunca su elektrik stansiyalarının inşası layihələri müzakirə olundu. Azərbaycan, Rusiya və İran arasında elektrik xətlərinin birləşdirilməsi məsələsinə toxunuldu, bu istiqamətdə əməkdaşlıq üçün böyük potensialın olduğu vurğulandı.

Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq və mehriban qonşuluq prinsipi əsasında münasibətlərin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyi qeyd olundu, yaxın gələcəkdə Azərbaycanla İran arasında hökumətlərarası komissiyanın növbəti iclasının keçiriləcəyi bildirildi. İclas çərçivəsində dövlət başçıları tərəfindən qeyd olunan konkret layihələrin müzakirəsi baxımından əlverişli imkanın olacağına ümidvarlıq ifadə edildi.

# "Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq zəngin tarixə malikdir"

## Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib



**_Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edib. AZƏRTAC xəbər verir ki, Maqdalena Qrono yeni vəzifədə dövlətimizin başçısı tərəfindən qəbul olunmasına görə minnətdarlığını ifadə etdi._**

O, təyyarə qəzası ilə bağlı dərin hüznlə başsağlığını çatdıraraq, aviaqəzanın bütün səbəblərinin hərtərəfli şəkildə araşdırılacağına ümidvarlığını bildirdi. Azərbaycanın Avropa İttifaqının vacib tərəfdaşı olduğunu deyən qonaq vurğuladı ki, Avropa İttifaqı Cənubi Qafqaz regionunda davamlı sabitliyin təmin olunmasında maraqlıdır.

Maqdalena Qrono ölkəmizin region və onun hüdudlarından kənar kontekstində əhəmiyyətinə toxunaraq, bu xüsusda Avropa İttifaqı ilə Azərbaycan arasında dialoqun önəmini vurğuladı. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyini deyən qonaq xüsusilə enerji sahəsində əməkdaşlığın vacibliyini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın zəngin tarixə malik olduğunu vurğuladı. Bu xüsusda Azərbaycan ilə Avropa İttifaqı arasında enerji, nəqliyyat, investisiyalar, ticarət və qarşılıqlı maraq doğuran digər sahələrlə bağlı məsələlərə toxunuldu.

Dövlətimizin başçısı ölkəmizin Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması üçün səylərini bundan sonra da davam etdirəcəyini bildirdi və Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesinin ikitərəfli müstəvidə aparıldığını dedi. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı üçün təmasların davam etdirilməsinin vacibliyi vurğulandı.



# Azərbaycan və Türkiyə prezidentləri arasında telefon danışığı olub

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan yanvarın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlər, regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparılıb.**

Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə "Bir millət, iki dövlət" prinsipi əsasında inkişaf edəcəyini vurğulayıb. Türkiyə Prezidenti ölkəsinin Cənubi Qafqaz regionunda davamlı sülhün əldə edilməsinə tam dəstək göstərdiyini deyərək, hər zaman Azərbaycanın yanında olmağa davam edəcəyini bildirib.

Prezident İlham Əliyev də öz növbəsində Azərbaycan-Türkiyə qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin "Bir millət, iki dövlət" prinsipi ilə inkişaf etdiyini deyib, ölkələrimizin hər zaman bir-birinin yanında olduqlarını vurğulayıb.

Telefon söhbəti zamanı 2025-ci ildə iki qardaş ölkə arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Həmçinin dövlət başçıları təmasların davam etdirilməsi məsələsini qeyd ediblər.

# Kanada üçün “cəhənnəmdə qartopu”

ABŞ-ın seçilmiş prezidenti Donald Tramp ölkəsinin 51-ci ştat olaraq daxil etmək istədiyi Kanadanın ABŞ-ın bir hissəsi olduğu xəritəni paylaşıb. Kanadanın baş naziri Castin Trüdonun cavabı isə dərhal olub. Buna baş nazir ”cəhənnəmdə qartopu” adını verib. Tramp bu xəritəni Truth sosial media platformasındakı hesabında izləyiciləri ilə paylaşıb. Uzun müddətdir Kanadanın ABŞ-ın bir hissəsi olması lazım olduğunu iddia edən Trampın paylaşdığı xəritədə Kanada və ABŞ vahid ölkə olaraq görünür. Trampın paylaşımının Kanadanın baş naziri Castin Trüdonun istefa verdiyini elan etməsindən sonra gəlməsi diqqət çəkib. ABŞ-ın seçilmiş prezidenti Kanadanın 51-ci ştat olaraq ABŞ-ın tərkibinə daxil edilməsi lazım olduğunu müdafiə edərək, ”Bizim onlardan çoxumuz var və onlardan heç nəyə ehtiyacımız yoxdur. Bəs niyə Kanadanı qorumaq üçün bir ildə 200 milyard dollar itiririk?”, deyib.



Kanadalıların da ABŞ-ın bir hissəsi olmaq istədiklərini iddia edən Tramp Trüdö üçün də dəfələrlə ”qubernator” ifadəsini işlədib. ABŞ-ın Kanadanın yaşaması üçün ehtiyac duyduğu böyük ticarət kəsirlərini və subsidiyaları artıq ödəyə bilməyəcəyini bildirən Tramp, Trüdönün bu səbəbdən istefa verdiyini iddia edib. Kanadanın baş naziri Donald Trampın Kanadanı ABŞ-a ilhaq etmək üçün ”iqtisadi gücdən” istifadə etmək hədəsinə cavab olaraq, iki ölkəni birləşdirmək üçün ”cəhənnəmdə qartopu şansının olmadığını” deyib.

Yeni seçilmiş prezident Kanadanın ABŞ-la ümumi sərhədində təhlükəsizliyi artırmaq üçün addımlar atmasa, Kanadadan gələn mallara ”əhəmiyyətli” tariflər tətbiq edəcəyi ilə hədələdiyini təkrarlayıb. Bazar ertəsi problemli Trüdo istefa verdiyini açıqlayıb, lakin hakim liberalların martın sonuna qədər yeni lider seçəcəyi gözlənilənədək baş nazir olaraq qalacaq. Kanada parlamenti liderlik yarışına vaxt vermək üçün martın 24-dək fəaliyyətini dayandırıb.

İqtisadçılar xəbərdarlıq edirlər ki, Tramp yanvarın 20-də vəzifəyə gəldikdən sonra tarifləri tətbiq etməyə davam edərsə, bu, Kanada iqtisadiyyatına ciddi ziyan vuracaq. Kanada hökumətinin məlumatlarına görə, 2023-cü ildə hər gün təxminən 3,6 milyard Kanada dolları (2,5 milyard ABŞ dolları) dəyərində mal və xidmətlər sərhəddən keçəcək. Trüdo hökuməti Trampın təhdidini yerinə yetirəcəyi təqdirdə əks tariflər tətbiq etməyi nəzərdən keçirdiyini bildirib.

Trampa daha bir cavab Panama xarici işlər naziri Xavyer Martinez-Açadan gəlib. Nazir Panama kanalının ölkəsinin tam suverenlik uğrunda apardığı mübarizənin bir parçası olduğunu bildirərək, ”Panama kanalı geri dönməz bir fəthdir”, deyib. Panama prezidenti Jose Raul Mulinonun sözlərini xatırladan Açа ”Kanalımızın suverenliyi müzakirə olunmazdır. Kanala nəzarət edən yeganə güc Panamadır və bundan sonra da belə olacaq” deyib. XİN başçısı bildirib ki, Tramp vəzifəyə gəldikdən sonra iki ölkə arasında münasibətlər rəsmi, adi və müvafiq kanallar vasitəsilə davam etdiriləcək. Panama xarici işlər naziri Acha ölkəsinin ”Panama Kanalı ilə bağlı danışıqlar aparılmamaq şərti ilə” hər zaman dialoqa açıq olduğunu təkrarlayıb və deyib: ”Kanalımızın insanlığa və ticarətə xidmət missiyası var, bu, ən böyük dəyərlərdən biridir” Panamalılar, əlavə olaraq, beynəlxalq ictimaiyyətə təklif edirik ki, biz münaqişədə iştirak etməyəcəyik və ya fəal iştirak etməyəcəyik.

Donald Tramp dünənki açıqlamasında Panama kanalı və Qrenlandiyaya nəzarət etmək üçün lazım gələrsə əsgərlərdən istifadə edə biləcəyini eyham edərək, ”Bu ikisi ilə bağlı sizə təminat verə bilmərəm. Ola bilər ki, nəsə etməliyik. İqtisadiyyatımız üçün onlara ehtiyacımız var” deyib.

Dekabrın 22-də Tramp Panamanı Panama kanalından istifadəyə görə həddindən artıq yüksək ödənişlər tələb etməkdə ittiham edib və kanalın düzgün idarə olunmadığı təqdirdə onun ABŞ-a qaytarılmasını tələb edəcəklərini bildirib. ABŞ-ın keçmiş prezidenti Cimmi Karterin kanalın idarəçiliyini Panamaya təhvil verməsini ”səhv” kimi qiymətləndirən Tramp qeyd edib ki, kanal Panamaya ”başqalarının xeyrinə” deyil, iki ölkə arasında əməkdaşlığın simvolu kimi verilib. Panama prezidenti Mulino Trampa cavab olaraq, ”Vətəndaşlarım, bir prezident kimi birmənalı olaraq bildirmək istəyirəm ki, Panama kanalı və ona bağlı bütün ərazilər, onun hər kvadratmetri Panamadır. Bizim dövlətimizin suverendir və müstəqildir, Panama kanalı Panamaya məxsusdur və belə də qalacaq.

***V.VƏLİYEV***

# “Fransanın xarici siyasəti yeni münaqişələr yaratmaqda davam edir”

Son illər Fransa Ermənistana təkcə diplomatik səviyyədə deyil, həm də silah-sursatla fəal dəstək verir ki, bu da Ermənistan ordusunu gücləndirir və revanşist əhvali-ruhiyyəni qızışdırır, regionda sabitliyi pozur. Artıq heç kimə sirr deyil ki, bu strategiya Fransanın regionda Türkiyə və Azərbaycana qarşı yönəlmiş geosiyasi oyununun bir hissəsidir. SİA yerli mənbələrə istinadən xəbər verir ki, bu barədə azərbaycanlı politoloq, ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun elmi işçisi Anastasiya Lavrinanın ”EU Today” nəşrində dərc olunan məqaləsində deyilir. Müəllif avropalı oxucuların diqqətini rəsmi Parisin açıq-aşkar faktları bilməməzdən gəlməsinə və Ermənistanın siyasətinə haqq qazandırmasına, habelə keçmiş müstəmləkələrə neokolonial təsirinin saxlanmasına yönəldir ki, bu da A.Lavrinanın sözlərinə görə, Fransanın dünya dövləti rolu ilə bağlı öz köhnəlmiş təsəvvürlərindən yapışdığını göstərir.






”Bu yaxınlarda şəbəkədə Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın Qarabağda və Ermənistanda etnik təmizləmə siyasətini açıq şəkildə etiraf etdiyi bəyanatı ilə video çəkiliş yayılıb. Bununla belə, Makron bu cür etirafları şərh etməməyə üstünlük verir, çünki bu, Fransadakı güclü erməni diasporu arasında onun dəstəyini sarsıda bilər. Fransa prezidenti 2020-ci ildə döyüşlərin və 2023-cü ildə Azərbaycanın antiterror tədbirlərinin dövlətin suveren ərazisində aparılması faktına da məhəl qoymur. 2023-cü ilin oktyabrında isə Ermənistanın baş naziri Paşinyan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyan bəyanat imzaladı”, - deyə ekspert yazır.

O, daha sonra xatırladır ki, 2024-cü ildə Fransa əsl siyasi fırtına yaşayıb: baş nazir postunda üç nəfər dəyişdi, bu da siyasi qeyri-sabitliyin və ölkəni bürümüş daxili böhranın bariz əksi oldu. ”Kənardan gələn saxta təhdidlərin arxasında real problemləri gizlətmək istəyi yalnız əhalinin yadlaşmasını və narazılığı artırır. Dünya səhnəsində demokratik dəyərlərə sadiqliyini bəyan edən Paris onları ölkə daxilində həyata keçirməkdən getdikcə uzaq olur. Buna misal olaraq Yeni Kaledoniyanın tələblərinə məhəl qoyulmaması və Bakının ünvanına Fransanın daxili işlərinə qarışmaqda ittihamları göstərmək olar. Aydındır ki, bu cür bəyanatlar diqqəti daha dərin məsələlərdən yayındırmaq cəhdidir. Baxmayaraq ki, məhz Bakının Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində gördüyü işlər sayəsində dünya ”yardım” və ”əməkdaşlıq” fasadının arxasında gizlənən fransız neokolonializmi haqqında həqiqətləri görməyə başladı”, - deyə müəllif qeyd edir.

Nəşrdə vurğulanır ki, Fransa müstəmləkəçilik dövrünün başa çatdığını elan edəndə onun keçmiş müstəmləkələrin xalqlarını ”azad etməsi” alqışlarla qarşılanıb, lakin onilliklər sonra məlum olub ki, Paris bu ölkələrə nəzarəti davam etdirir, lakin yeni üsullarla.

”Neomüstəmləkəçilik sadəcə bir termin deyil, Fransanın iqtisadi, hərbi və mədəni mexanizmlər vasitəsilə təsirini saxladığı keçmiş müstəmləkələr üçün reallıqdır. Diqqətəlayiq nümunə, hələ də 14 Afrika ölkəsində istifadə edilən və Parisin nəzarəti altında qalan Fransız frankı - CFA-dır. Bu, həmin dövlətlərin iqtisadi müstəqilliyini məhdudlaşdırır, onların ərazisində çıxarılan təbii sərvətlərdən əldə olunan gəlirlər isə çox vaxt birbaşa Parisə göndərilir. ”Total” və ”Orange” kimi fransız şirkətləri Afrika iqtisadiyyatında hökmranlıq etməkdə davam edir, ölkənin hərbi bazaları isə ”sülhməramlı” missiyalar adı altında əsas regionlar üzərində strateji nəzarəti təmin edir”, - deyə məqalədə deyilir.

A.Lavrinanın sözlərinə görə, Fransanın təsiri təkcə iqtisadiyyat və ordu ilə məhdudlaşmır: fransız dili, təhsil sistemi və ”Alyans Fransez” kimi mədəniyyət qurumları vasitəsilə mədəni dominantlıq psixi asılılığın qorunub saxlanmasına töhfə verir. Bu, xüsusilə gənclər arasında narazılıq yaradır, onlar həqiqi müstəqilliyin və Fransanın nəzarətindən azad olmağın zəruriliyini getdikcə daha çox dərk edirlər. ”Beləliklə, Makronun Azərbaycanın ünvanına tənqid yağdırması, aşkar faktlara məhəl qoymaması və Ermənistan siyasətinə haqq qazandırması, eləcə də keçmiş müstəmləkələrə neokolonial təsiri davam etdirməsi - bütün bunlar Fransanın dünya dövləti rolu ilə bağlı köhnəlmiş ideyalarından yapışdığını göstərir. Ölkə daxili böhranlarla və artan narazılıqla üzləşdiyi bir vaxtda onun xarici siyasəti özgəninkiləşdirməni dərinləşdirməkdə və yeni münaqişələr yaratmaqda davam edir, dünyanı sual verməyə məcbur edir: Fransa, həqiqətən də, öz demokratik prinsiplərinə uyğun yaşamağa hazırdırmı?” - deyə politoloq yekunlaşdırır.

# Azərbaycanın dünya siyasi sistemində nüfuzu

## Prezident İlham Əliyev: "Azərbaycanın D-8-ə qəbul edilməsi ölkəmizin nüfuzunu bir daha göstərir"

Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib. Bu gün Azərbaycan düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Prezident İlham Əliyevin güclü siyasi iradəsi sayəsində Azərbaycanın bütün dünya miqyasında nümunəvi sayılan və bir sıra mütərəqqi cəhətləri ilə fərqlənən yeni keyfiyyətli inkişaf modeli formalaşıb. Bu gün Prezident İlham Əliyevin qüdrətli rəhbərliyi ilə Azərbaycan dünyada, xüsusilə Avrasiyada mühüm iqtisadi və siyasi oyunçu və güc mərkəzinə çevrilib.

Azərbaycanın növbəti diplomatik uğuru - D-8 təşkilatına üzvlük ölkəmizin müstəqillik tarixində beynəlxalq diplomatik uğurlar sırasına daxil olan növbəti əlamətdar hadisə kimi yadda qalıb. "Azərbaycanın D-8-ə qəbul edilməsi ölkəmizin nüfuzunu bir daha göstərir". Bunu Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində deyib. Otuz ilə yaxın bundan əvvəl yaranmış təşkilatın birinci genişlənmə qərarından sonra qəbul edilən ilk üzvün Azərbaycan olduğunu vurğulayan dövlətimizin başçısı deyib ki, bu, ölkəmizin nüfuzunu, eyni zamanda, beynəlxalq aləmdə rolumuzu göstərir. Prezident, həmçinin qeyd edib: "Dünyada 60-a yaxın müsəlman ölkəsi var və məhz Azərbaycan yeni üzv seçilmişdir. Əlbəttə ki, bu, bizim üçün həm böyük şərəfdir, həm də böyük məsuliyyətdir".

Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib. Bu, D-8 yarandığı gündən təşkilatın sıralarının ilk genişlənməsi kimi əlamətdardır. Üç qitəni əhatə edən, 4 trilyon ABŞ dollardan artıq ÜDM-ə malik, 130 milyard ticarət dövriyyəsi həyata keçirən, üzvlərinin əhalisinin sayının ümumilikdə dünya müsəlmanlarının 60%-ni təşkil edən (ümumi əhali 1,2 milliardan artıqdır) və böyük iqtisadi potensiala malik "İslam Səkkizliyi" adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir. Bu, Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsidir. "Bu, bizim üçün növbəti uğurlu addım oldu", - deyən Prezident bildirib ki, D-8 müsəlman ölkələrini birləşdirən ən böyük təşkilatdır. Bir milyarddan çox əhalisi olan və müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizini təşkil edən bir təşkilatdır.

### "BİZ ƏLBƏTTƏ Kİ, ÜZV ÖLKƏLƏRLƏ DAHA SIX TƏMASDA OLACAĞIQ"

Prezident İlham Əliyev ilk dəfə olaraq fəxri qonaq qismində İstanbulda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib. Azərbaycanın D-8-ə qoşulması, ölkəmizin multilateralizm siyasətinə sadiqliyini bir daha nümayiş etdirir. Bu, Azərbaycanın təşkilat çərçivəsində həm çoxtərəfli, həm də ikitərəfli formatda əlaqələrinin inkişafına təkan verəcək. D-8-ə üzvlük və İslam Əməkdaşlıq Təşkilatına üzvlük, ölkəmizin xarici siyasətində bir-birini tamamlayan elementlərdir. Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir. Bu gün Azərbaycan islam həmrəyliyi ideyalarına və mədəniyyətlərarası dialoq ənənələrinə sadiqdir. Azərbaycan öz əqidəsinə, milli dəyərlərinə sadiq bir dövlətdir. Azərbaycan islami dəyərlərə, islam dininə bağlı dövlətdir. Bunun nəticəsidir ki, müasir dövrümüzdə ölkəmizdə islami dəyərlər, multikulturalizm məktəbi və tolerantlıq yeni dövrünü yaşayır. "Bizim namizədliyimizi ilk gündən dəstəkləyən Türkiyə olmuşdur. Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə mən hətta bir dəfə Türkiyədə keçirilmiş D-8 Zirvə görüşündə də qonaq qismində iştirak etmişdim, təqribən 7-8 il bundan əvvəl. Artıq o vaxtdan bəri Azərbaycanın üzvlüyü ilə bağlı məsələ gündəliyə salınmışdı. Amma təbii ki, bütün üzv ölkələr arasında konsensus olmalıydı və nəhayət, bu konsensus əldə edildi. Biz əlbəttə ki, üzv ölkələrlə daha sıx təmasda olacağıq. Halbuki bu günə qədər də bütün üzv ölkələrlə bizim çox fəal münasibətlərimiz var. Biz bu qərarı yenə də uğurlarımızın qəbul olunması hesab edirik və yenə də deyirəm, bu, sadəcə olaraq, birinci addımdır. Əsas məsələ D-8-in gələcək fəaliyyəti ilə bağlı olacaq. Əlbəttə ki, bizim öz fikirlərimiz, öz gündəliyimiz var. Biz üzv ölkələrlə daim təmasda olaraq öz təkliflərimizi verəcəyik. Düşünürəm ki, D-8-in təşkilat olaraq daha böyük nüfuza malik olması məsələsi tam realdır. Hesab edirəm ki, bir halda, artıq genişlənməyə start verildi, bu, Azərbaycanla məhdudlaşmayacaq və ola bilsin ki, digər ölkələr dəvət ediləcək. Əlbəttə ki, bu məsələlərə konsensus əsasında baxılacaq", - deyə dövlət başçısı qeyd edib. Ədaləti və beynəlxalq hüququn norma və prinsiplərini özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz D-8-in təməl prinsiplərinin qorunmasına, təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacaq.



### "AZƏRBAYCAN HƏMİŞƏ MÜSƏLMAN ALƏMİNİN DƏYƏRLİ ÜZVÜ OLMUŞDUR"

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəni birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında atılıb. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. Katibliyi İstanbul şəhərində yerləşir. Təşkilatın yeni hədəfləri "2020-2030 illər yol xəritəsi" sənədində əks olunub. Azərbaycan Prezidenti İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 21 il ərzində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirilib.

Prezident diqqətə çatdırıb ki, bütün müsəlman ölkələrinin maraqlarını biz öz maraqlarımız kimi qəbul edirik, bəlkə də o cümlədən buna görə D-8-in genişlənməsi siyasətindən sonra birinci seçim Azərbaycan olmuşdur: "Əlbəttə, burada ölkəmizin həm iqtisadi potensialı, siyasi çəkisi, hərbi gücü nəzərə alınıbdır. Bax, dediyim İslam həmrəyliyi ilə bağlı siyasətimiz nəzərə alınıbdır və eyni zamanda, bu təşkilat öz coğrafiyasını da genişləndirir. Artıq D-8 həm Qafqaz, həm də Xəzər regionuna genişlənib və coğrafiyamız nə qədər geniş olsa, imkanlarımız da o qədər geniş olacaq".

### "BİZİM ÜÇÜN COP29 BÖYÜK BİR ÇAĞIRIŞ VƏ BÖYÜK İMKAN İDİ"

Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir. COP29 tədbirinin yüksək təşkilatçılığı, uğuru Azərbaycanın beynəlxalq nüfuzunun daha bir təqdimatı oldu. Bu, bir daha təsdiqləyir ki, Azərbaycan daxilində hökm sürən sabitliyi, təhlükəsizliyi nəticəsində belə möhtəşəm tədbirləri reallaşdırır. Bütün vasitələrdən istifadə edərək COP29-a qarşı boykot kampaniyası həyata keçirməyə cəhd etsələr də Azərbaycan uğurla bu tədbirə ev sahibliyi etdi.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının nümunəsidir. COP29-u keçirməyə ölkəmizə bir ildən az zaman verilsə də Azərbaycan bu işin öhtəsindən layiqincə gələ bildi. Dünyanın nəzər nöqtəsini özünə cəmləndirən Azərbaycanda müasir dünyanı narahat edən məsələlərin müzakirə olunmasında dünya ölkələrin nümayəndələri bir araya gəldi. Dünyanın müxtəlif ölkələrində iqlim dəyişikliyindən ən çox əziyyət çəkənlərə SOP-29 töhfə verəcəkdir. Qoşulmama Hərəkatına sədrliyikdən və Təhlükəsizlik Şurasına üzvlüyülükdən sonra Azərbaycanın xarici siyasətinin növbəti bir uğuru kimi səciyyələndirilir.

"Bizim üçün COP29 böyük bir çağırış və böyük imkan idi", - deyə Prezident qeyd edib: "Biz 4 il ərzində Qoşulmama Hərəkatında sədrlik etmişik. Bu, böyük uğur idi və üzv dövlətlərin yekdil qərarı ilə bizim sədrliyimiz daha bir il uzadıldı. Eyni zamanda, Avropa siyasətində fəal iştirak edən bir ölkə kimi Azərbaycan Avropa İttifaqının 10 üzv ölkəsi ilə strateji tərəfdaşlıq haqqında bəyannamə imzalayıb və qəbul edib. Biz hesab edik ki, bu iş uğurla nəticələnə bilər. Biz dərhal iki istiqamətdə işə başladıq - hazırlıq və məzmun. Hər iki istiqamətdə çoxsaylı çətinliklər var idi, lakin yekun nəticə bunun uğur hekayəsi olduğunu sübut etdi. Hazırlıq bizim üçün böyük çağırış idi, çünki əvvəlki COP-lardan fərqli olaraq hazırlıq üçün 2 il deyil, cəmi 11 ay vaxtımız var idi. Biz stadion və onun ətrafında nəhəng qurğular inşa etməli idik - bu, 200 min kvadratmetrə yaxın qapalı məkan idi. Tədbirin təşkilatçılığı hər kəsdə məmnunluq doğurdu".

COP29-un Azərbaycanda keçirilməsi 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamıdır. İqlim dəyişikliyinə yeni yanaşmalar yaradacaq COP29 çərçivəsində Azərbaycan gündəliyinin yaşıl enerji ilə bağlı olmasını bir daha sərgilədi. COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin sosial, iqtisadi və ekoloji inkişafına töhfə verən strateji əhəmiyyətli bir addımdır və Azərbaycanın davamlı inkişaf yolunda beynəlxalq səviyyədə mövqeyini möhkəmləndirən mühüm bir tədbirdir. Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəklikləridir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Sülh üçün silahlanma?

"Ən yaxşı müdafiə hücumdur" ifadəsi deyəsən ermənilərin düşüncəsində başqa cür translasiya olunur. Hesab edirlər ki, sülh əldə etmək üçün mütləq silahlanmaq lazımdır. Ona görə də enerjilərini tərəfdaşlarından diləndikləri silahları daşımağa sərf edirlər. Tutaq ki, silahlandılar, bəs sonra? Azərbaycan necə, Ermənistanın silahlanmasını sadəcə seyr edəcəkmi, bir addım atmayacaqmı? Böyük ehtimalla Bakı İrəvanın silahlanmasına, yəni qısamüddətli planlarına seyrçi qalmayacaq. Rəsmi mənbələrin açıqlamasından da görünür ki, Hindistandan, Fransadan və digər ölkələrdən alınan silahlar Azərbaycana qarşı istifadə olunması üçün hazırlıq vəziyyətinə gətiriləcəyi andaca məhv ediləcək. Bunu Ermənistandakılar daha yaxşı bilirlər.

Ermənistanın oyuncaq dövlət olduğu kimsəyə sirr deyil. Rusiyanın qucağından düşməmiş özünə yeni himayədar axtaran ölkə də Ermənistandır. Hələ Sovet hakimiyyəti illərindən başlayaraq Azərbaycan torpaqlarına göz dikərkən də başqalarına ümid edir, onların köməyinə arxalanırdılar. Bu arxayınçılığa, himayəyə öyrəncəli olan bu zümrə hələ də ümidlərini kənar qüvvələrə bağlayıblar. 1920-ci ildə Azərbaycanın torpaqları hesabına qondarma dövlət qurulanda cəmi 9 min kvadrat kilometr əraziyə malik olan Ermənistan Moskvadakı maşa tutanlarının qurduqları oyun sayəsində, müxtəlif bəhanə və şərtlər daxilində coğrafi xəritəsini genişləndirə bildilər. Amma ən böyük əngəl, bu ərazilərdə yaşayan yüz minlərlə azərbaycanlının hələ də qondarma Ermənistanın ərazisində yaşaması bəzi dairələri yeni planlar qurmağa vadar etdi.

Ermənistanın birinci prezidenti Suriya ermənisi Levon Ter-Petrosyanın 1993-cü ildə terrorçular qarşısındakı çıxışında əvvəlcə Ermənistanda, daha sonra Qarabağda azərbaycanlılara qarşı törədilən cinayətlərin motivində bir məsələ dayanır. Xarici qüvvələrin hərtərəfli dəstəyi ilə azərbaycanlıları əvvəlcə Ermənistandakı öz ata-baba torpaqlarından qovmaq və "müstəqil" Ermənistanı monoetnik ölkəyə çevirmək, ikinci planda isə Azərbaycanın Qarabağ bölgəsini tədricən ələ keçirmək. Birinci plan həyata keçirildi və ikinci plan da ermənilərin gözləmədiyi şəkildə baş tutdu. 30 ilə yaxın torpaqlarımızı işğal altında saxlaya bildilər. Çünki Azərbaycan beynəlxalq güclərin vədlərinin yaxın vaxtlarda həyata keçəcəyinə inanmaq istəyirdi. Amma ATƏT-in qondarma "Minsk qrupu"nda təmsil olunan dövlətlər tarixin bugünədək şahidlik etmədiyi beynəlxalq səviyyəti dələduqluq etdilər, Azərbaycanı inandırmağa çalışdılar ki, "xalqların öz müqəddaratını təyinetmə hüququ"nun "ölkələrin ərazi bütövlüyü"ndən vacib olduğu beynəlxalq sənədlərdə də təsbit olunub. Əlbəttə, bütün bunlar qərblilərin, xristian dünyasının uydurması, məqsədinə çatması üçün bir vasitə idi. Əgər ərazi bütövlüyü sonda gəlirsə, niyə Rusiya, ABŞ, Fransa və bu fərziyyə ilə həmrəy olan ölkələr öz ərazilərindən ermənilərə kiçik bir pay vermədilər. Torpaq vermək humanistlik əlamətidirsə ABŞ Kaliforniyanı, Fransa Parisin İl-de-Frans regionunu (burada ermənilərin sayı 200 mindir, Qarabağda yaşamış ermənilərin sayından 4 dəfə çox- müəllif), Rusiya Krasnodar bölgəsini niyə ermənilərə peşkəş vermədilər? Əlbəttə, sərfəli variant deyil. Amma Azərbaycan üçün bunu keçərli hesab edirdilər.



Bu gün Ermənistan hakimiyyəti az qala azərbaycanlıların Ermənistan ərazilərində heç vaxt yaşamadıqlarını və Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatların yalan olduğunu deməyə cəsarət etmək istəyir. Amma "çıdanı çuvalda gizlətmək mümkün olmadığı" kimi, yaxın keçmişdə baş verən hadisələri də tarixdən silmək mümkün deyil. Ermənistan yenə ağalarının, tasmasını tutanların şirnikləndirici vədlərinə inanıb silahlanır, əlindəovcunda nə varsa, verib silah toplayır. Bu addımını guya sülh danışıqlarında ən azından bərabərhüquqlu tərəf kimi masaya oturmaq istəyir. Fakt isə budur ki, Azərbaycan qalibdir və Ermənistanın milyardlarla dollarlıq silah-sursatını, hərbi texnikasını ya məhv edib, ya da qənimət kimi ələ keçirib. Hətta Ermənistanın əvəzindən "həmsədrlər"dən kimsə sülh üçün danışıqlar masasına otursa belə ermənidən bir santimetr də üstün olmayacaq. Çünki, Azərbaycan həm də haqlı tərəfdir, müharibə onun ərazilərində gedib, Azərbaycan silahlı qüvvələri düşməni dünya birliyi tərəfindən tanınan ərazilərimizdən vurub çıxarıb. Bu müharibənin adı, ədalətin bərpası, haqqın nazil olmasıdır.

## Qərblilər yenə öz ampluasındadır

Fransa prezidenti Emmanuel Makronun Azərbaycanla bağlı açıqlamasının rəsmi Bakıda hiddətə səbəb olduğu bildirilir. Belə ki, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə deyib ki, Fransa prezidentinin Azərbaycana qarşı növbəti əsassız iddiaları və real faktları təhrif edən təxribat xarakterli bəyanatları qəbuledilməzdir. Bəs E.Makronun açıqlaması nə ilə bağlı idi? Fransa prezidenti Emmanuel Makron Rusiyanın Azərbaycanın Ermənistana qarşı hərəkətlərini dəstəklədiyini bildirib. Onun Fransa səfirləri və diplomatları ilə görüşdə çıxışının mətni Yelisey sarayının saytında dərc olunub. Fransa prezidenti bildirib ki, Rusiya "müttəfiqliyinə kəskin xəyanət edərək Azərbaycanın hərəkətlərini dəstəkləyib", çünki Ermənistanın "ilk dəfə cəsarətlə buna qarşı çıxan baş naziri var".

Makron Bakının Fransanın dənizaşırı ərazilərinə müdaxiləsini də qeyd edib. "Fransa son aylarda beynəlxalq hüququ və Ermənistanı müdafiə etdiyimizə görə öz anlaşılmazlıqlarını həll edə biləcəyinə inanan Azərbaycan tərəfindən əksər xarici ərazilərin, xüsusən də Yeni Kaledoniyanın işlərinə qəbuledilməz müdaxiləyə məruz qalıb", deyə bildirib. Makron hələ də Fransanın Dənizaşırı ölkələrdə yeritdiyi yırtıcı siyasətin mahiyyətini anlamır. Rəsmi Bakının müstəmləkələr barədə iradlarına çox bəsit, daha doğrusu siyasətdən anlayışı olmayan birisi kimi reaksiya verməsi Makronun siyasətçi, yaxud prezident kimi personasına şübhələr yaradır. Dünya müstəmləkəçilik siyasətini lənətlərir, bəzi dövlətlər beynəlxalq təzyiqlərə tab gətirməyərək koloniyalardan imtina edir, Fransa isə bunu yeni formada saxlamağa, çirkin niyyətlərini davam etdirməyə təşəbbüs göstərir. Sanki, Fransa bunun davamını gətirməli, xalqları istismar etməli, bu xalqlara məxsus olanları sümürməklə məşğul olmalıdır.

## Stratfor: Tramp Bakını seçəcək

"Stratfor" yazır ki, Ermənistan və Azərbaycan sülh danışıqlarında öz mövqelərini möhkəmləndirmək üçün xaricdən dəstək axtardıqları üçün Cənubi Qafqaz geosiyasi təsir uğrunda döyüş meydanı olaraq qalacaq. Ermənistan və Azərbaycan çox güman ki, sülh sazişinə doğru irəliləyəcəklər, lakin Ermənistanda konstitusiya dəyişiklikləri, onların sərhədlərinin tam demarkasiyası və tranzit əlaqələrinin açılması ilə bağlı fikir ayrılıqları, çox güman ki, 2025-ci ildə sülh sazişinin bağlanmasına mane olacaq.

Bu məsələlərin bəziləri sonrakı razılaşma üçün təxirə salına bilər, lakin razılıq əldə olunana qədər Bakı danışıqlarda rıçaqları saxlamaq üçün hərbi üstünlüyündən istifadə etdiyi üçün regionda alovlanma potensialı davam edəcək. Hər iki tərəf danışıqlarda təsir rıçaqlarını qoruyub saxlamaq üçün xarici dəstəkçilər axtaracaq. Azərbaycan və Ermənistan Rusiyanın Ukraynada mümkün atəşkəsə güclü təsirini və Rusiyayönlü Gürcüstan hökumətini yaxın illərdə Moskvanın Cənubi Qafqaza təsir imkanlarını artırmaq kimi qiymətləndirərək, Moskvaya qarşı düşmənçilikdən çəkinəcəklər.

Tramp administrasiyası Rusiya, İran və Çinin regional təsirinə regional tarazlıq kimi Bakı ilə güclü münasibətləri prioritet hesab etdiyi üçün Ermənistanın ABŞ-dan güclü dəstək almaq cəhdləri puça çıxacaq. Əvəzində Ermənistan Fransadan gələn hərbi texnikaya arxalanacaq və Avropa İttifaqı ilə ticarətin artırılmasına can atacaq. Ermənistan Qərblə artan bu siyasi və müdafiə əlaqələrindən istifadə edərək Azərbaycanın gərginləşməsinin qarşısını almağa və sülh danışıqlarında Bakının ən güclü tələblərinə, yəni Ermənistanın cənubundan tranzit keçməsinə qarşı çıxmağa çalışacaq.

## Ermənistanın üzləşdiyi xarici və daxili çağırışlar

Paşinyan rejimi tərəfindən Ermənistanı nəinki gücləndirməyən, əksinə zəiflədən hərəkətlər görürük. ABŞ-ın dövlət katibi Antoni Blinken Financial Times qəzetinə müsahibəsində deyib: "İran heç kimlə döyüşmək iqtidarında deyil... Bunun Suriya üçün real müsbət nəticələri oldu. Bu bəyanat çox vaxtında gəldi. Nəhayət, İsrail Ordusunun Baş Qərargah rəisi Herzi Halevi "İran yaxın günlərdə İsrailə qarşı "ifrat" tədbirlər görməyə qərar verəcəyi təqdirdə hərbçilərə yüksək döyüş hazırlığı əmrini verib.

"Today in Israel" portalının müdafiə sistemindəki adı açıqlanmayan mənbələrə istinadən verdiyi məlumata görə, bu ehtiyat tədbiri İranın Livan və Suriyadakı fəlakətli fiaskodan sonra çoxsaylı problemlərlə üzləşməsi ilə bağlıdır. Bu, həmçinin İranın rial məzənnəsinin aşağı düşməsinə, infrastruktur problemlərinə və siyasi iğtişaşlara işarə edir. Və bütün bunlar tamamilə real ssenaridir. Beləliklə, Ermənistan yeni ilə elə bir şəraitdə qədəm qoydu ki, Azərbaycan üçün çəkindirici rol oynayan çoxdankı, sadiq strateji müttəfiqlərindən biri çox narahat günlər yaşayır və mümkün, hətta qaçılmaz ABŞ-İsrail ikilisindən hücumları dəf etməyə hazırlaşır. Hadisələrin bu inkişafı, xüsusən də Ankara və Bakının mövqelərinin güclənməsi fonunda erməniləri narahat etməyə bilməz.

44 günlük müharibə zamanı Rusiyanın Ermənistanı müdafiə etmək istəməməsindən ermənilər istədiyi qədər şikayət etdi, amma... Lakin ermənilər "Fransa və ABŞ-ın da bu müharibədə Ermənistanı xilas etmədiyi"ni də unutmayıblar. Qarabağda baş verən separatçı ünsürlərə qarşı antiterror tədbirlərinə də heç kim mane ola bilmədi. Ermənilər hələ də inanırlar ki, Rusiya öz imperiya ambisiyalarına və coğrafi yaxınlığına görə Türkiyə-Azərbaycan tandeminin yeni təxribatlarına mane ola bilər, eləcə də Fransaya qarşı addımlara rəğmən Paris müxtəlif təzyiq rıçaqlarından istifadə edə bilər. Hətta sanksiyaların tətbiqi də ola bilər. Lakin bu, erməniləri xilas etməyəcək, təsəlli də verməyəcək. ABŞ-ın da münasibəti oxşardır və aydındır ki, Cənubi Qafqaz regionu Donald Trampı bir o qədər də maraqlandırmır.

Xatırlayırıq ki, 44 günlük müharibə Trampın əvvəlki prezidentlik dövründə başladı. İndiki vəziyyətin ermənilər üçün pis olmasında Orban faktorunun da səbəb olması barəsində də İrəvanda danışırlar. Qeyd edirlər ki, "Macarıstanın baş naziri Avropada Trampdan geniş səlahiyyətlər alıb. Orban hamının bildiyi kimi, Azərbaycan Prezidentinin yaxın dostudur. İran, Rusiya və Fransa bizə dəstək verə bilməyəcək və ABŞ çox güman ki, Azərbaycanla İsrailin yaxınlığına görə dəstək vermək istəməyəcək. Beləliklə, bütün bunların fonunda Ermənistanı nəinki gücləndirən, əksinə zəiflədən hərəkətlər görürük". Hər şey Ermənistan üçün daha pisdir. Əvəzində İrəvanın sülh müqaviləsini imzalamamaq istəyini sezirik. Üzdə sülhdən danışır, əməldə isə buna qarşıdır. Özünü sülh mələyi donunda təqdim etməyə çalışır, nə yazıqlar ki, iblis kimi davranır.

***V.VƏLİYEV***

# "Səs" qəzeti heç zaman öz yolundan dönməyib"

***Müstəqil Azərbaycanın müasir mətbuat tarixində öz dəstxətti ilə seçilən, fəaliyyətə başladığı gündən xalqımızın azadlıq arzularına səs verən "Səs" qəzetinin yaranmasından bu ilin yanvarın 11-də 34 il ötür. "Səs" qəzeti bütün bu illər ərzində təkcə cəmiyyətin informasiya ilə təmin olunması funksiyasını yerinə yetirməmiş, eyni zamanda, Azərbaycanda ictimai fikrin obyektiv və düzgün əsaslarla formalaşması sahəsində böyük xidmətlər göstərmiş, gərgin mübarizədə müstəqilliyini bərpa edən ölkəmizin siyasi sisteminin milli maraqlara uyğun qurulmasında mühüm rol oynamışdır. Bəs gəlin görək, "Səs" qəzeti Azərbaycan mətbuatında necə qəbul olunur və hansı xüsusiyyətlərinə görə seçilir? Media kapitanları bu barədə öz fikirlərini bildirib.***




**Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü Vüqar Ziferoğlu:** "İlk növbədə "Səs" qəzetinin dəyərli kollektivini nəşrinin 34-cü ildönümü münasibətilə ürək-



dən təbrik edirəm! "Səs" qəzeti uzun illərdir ki, cəmiyyətimizin mühüm məsələlərinə işıq tutaraq, oxucularını obyektiv və dolğun informasiya ilə təmin edir.

Azərbaycanın media məkanında özünəməxsus rolu və xidmətləri olan "Səs" qəzeti, yalnız informasiya daşıyıcısı kimi deyil, həm də milli dəyərlərimizin və ictimai şüurun formalaşmasında vacib bir platforma kimi seçilir. Qəzetin redaksiya heyətinin peşəkarlığı və prinsipiallığı, oxuculara səmimi xidmət və inandırıcı mövqe hər zaman yüksək qiymətləndirilir. Bu əlamətdar gündə sizə yeni uğurlar, davamlı inkişaf və daha böyük nailiyyətlər arzu edirəm. Qoy, "Səs" qəzeti gələcəkdə də öz oxucularını dəyərli yazılarla sevindirsin və ölkəmizin informasiya məkanında öz mövqeyini daha da möhkəmləndirsin. Sizin hər birinizi ürəkdən təbrik edir və böyük uğurlar arzu edirəm!".

**"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə:** ""Səs" qəzeti Azərbaycanda ilk müstəqil mətbuat orqanlarından biridir. Azərbaycanın müstəqillik illərinin və bu illər-



də baş vermiş hadisələrin şahidi olan, həmçinin o dövrün tarixi salnaməsini yaradan "Səs" qəzeti hər zaman obyektivliyi, qərəzsiz fəaliyyəti, milli maraqlarımıza və dövlətçiliyimizə sədaqəti ilə də diqqətdə olub.

Nəşr Azərbaycanın çox ağır günlərində fəaliyyətə başlayıb. 1991-ci il yanvarın 11-də ilk sayı işıq üzü görən "Səs" qəzeti tarixi zərurətdən yaranan mətbuat orqanıdır. Yarandığı dövrün gərgin ictimai-siyasi şərtlərinə baxmayaraq "Səs" qəzeti dövlətçilik mövqeyindən heç vaxt geri çəkilməyib. Qəzet fəaliyyət göstərdiyi bütün dövrlərdə dövlətçilik, azərbaycançılıq ideologiyasının carçısı olmuş, cəmiyyətdə siyasi plüralizmə kəskin ehtiyac duyulduğu həmin illərdə sağlam düşüncəli vətənpərvər ziyalıların tribunası rolunu oynamışdır. Sağlam əqidə, milli özünüdərk ruhunda köklənmiş insanları ətrafında birləşdirən "Səs" qəzeti heç zaman öz yolundan dönməmiş, Ümummilli Lider Heydər Əliyevin ideyalarını qətiyyətlə təbliğ etmişdir. Bu mühüm məqamı da qeyd etməliyik ki, hazırda ölkədə gedən bütün proseslərin mərkəzində dayanan, nəinki Azərbaycanın, regionun aparıcı siyasi təşkilatına çevrilən Yeni Azərbaycan Partiyasının yaradılmasını zərurətə çevirən reallıqların, partiyanın təşkilatlanması prosesinin təbliğində "Səs" qəzeti fəal iştirak edib. Qəzet bu gün də Ulu Öndər Heydər Əliyev ideyalarının, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasətin təbliğ edilməsində mühüm rol oynayır.

34 illik şərəfli yol qət edən "Səs" qəzeti bu gün böyük oxucu auditoriyası qazanaraq cəmiyyətin informasiya tələbatının ödənilməsinə öz töhfəsini verir. Qəzetin bu gün çoxsaylı mətbu orqanlar sırasında özünəməxsus yer tutmasını şərtləndirən mühüm amillərdən biri tutduğu yola sadiqliyi, dövlətə, dövlətçiliyə xidməti fəaliyyətinin əsas prinsipi kimi qəbul etməsi, dövrün reallıqlarını obyektiv şəkildə ictimaiyyətə çatdırmasıdır. "Səs" çoxşaxəli fəaliyyəti ilə oxucularının informasiya tələbatını ödəyir. Belə ki, qəzet ilə yanaşı, "Səs" İnformasiya Agentliyi, SƏS İnternet Televiziyası uğurla fəaliyyət göstərir.

Müstəqil milli mətbuatımızın inkişafında özünəməxsus yeri olan "Səs" qəzetinin jurnalist məktəbimizin formalaşmasında da xidmətləri danılmazdır. Bir zamanlar bu qəzetin redaksiyasında çalışan bir çox həmkarlarımız bu gün müxtəlif sahələrdə və fərqli ünvanlarda uğurla fəaliyyət göstərirlər. 34 yaşı tamam olan "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev başda olmaqla bütün kollektivi təbrik edir, onlara yeni-yeni yaradıcılıq uğurları arzulayıram".

**"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev:** ""Səs" qəzeti Azərbaycanın müstəqilliyi ilə yaşıd olan mətbuat orqanıdır. Azərbaycanın bütün müstəqillik tarixi ərzində, yəni 33 il ərzində "Səs" qəzeti həm baş verən proseslərin xronikasını yaratmaq baxımından tarixi rol oynayıb, həm də bir siyasi tribuna olaraq proseslərin müəyyəb istiqamətdə təşkil olunmasına öz töhfəsini verib. Bu qəzetin yarandığı gündən siyasi fəaliyyət kursu apardığı hamıya bəllidir və onun mətbuat, informasiya funksiyası ilə bərabər si-



yasi bir funksiyası olub ki, bu da Azərbaycan dövlətçiliyinin yaranması, formalaşması və gücləndirilməsi maraqlarına xidmət edib.

Bu mənada "Səs" qəzetinin tarixi həm də Azərbaycan dövlətçiliyi uğrunda mübarizə tarixidir. Azərbaycan dövlətçiliyi ilə nəinki zaman etibarı ilə həmyaşıddır, eyni zamanda dövlətçiliyin problemlərinin həll olunması üçün ictimaiyyətin fikrinin toplanmasında "Səs" qəzeti öz rolunu oynayıb. "Səs" qəzetinin bu işlərdə əvəzsiz rolu olub".

***Ayşən Vəli***

## "Uzunmüddətli fasilələr möhlət hüququnun itirilməsinə səbəb ola bilər"

*EKSPERT AYDINLIQ GƏTİRDİ*

"Azərbaycanda hərbi xidmətə çağırış və təhsil arasında möhlət hüququ məsələsi uzun illərdir müzakirə olunan mövzulardan biridir. Təhsil alan şəxslərə hərbi xidmətlə bağlı verilən möhlət hüququ təhsilin dəstəklənməsi və ali təhsilli vətəndaşların sayının artırılması məqsədini daşıyır. Bununla belə, möhlət hüququnun tətbiqi qanunvericiliyin tələblərinə və təhsil prosesinin ardıcıllığına ciddi şəkildə bağlıdır. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, əyani təhsil alan tələbələrə müəyyən şərtlərlə hərbi xidmətdən möhlət hüququ verilir. Bu hüquq təhsilin bakalavr, magistratura və doktorantura səviyyələrində tətbiq olunur". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Kamran Əsədov sözlərinə belə davam edib: "Hərbi xidmətə çağırış yaşı 18-dən başlayaraq 30 yaşa qədər davam edir. Təhsil üçün möhlət hüququ yalnız əyani təhsil formasında mümkündür. Qiyabi və ya distant təhsil alan şəxslər möhlət hüququndan istifadə edə bilməz. Möhlət hü-



ququnun əsas şərtlərindən biri təhsilin pillələrarası fasiləsizliyidir. Bu o deməkdir ki, bakalavr təhsilini bitirən tələbə magistratura təhsilinə fasiləsiz şəkildə davam edərsə, möhlət hüququnu saxlaya bilər. Lakin uzunmüddətli fasilələr möhlət hüququnun itirilməsinə səbəb ola bilər. Misal olaraq, bakalavr təhsilini başa vurduqdan sonra 4-5 il fasilə verərək magistraturaya daxil olan şəxs artıq möhlət hüququndan istifadə edə bilməz. Belə hallarda qanunvericilik təhsilin ardıcıllığını əsas götürür.

Statistik göstəricilər göstərir ki, Azərbaycanda hərbi xidmətdən təhsil səbəbilə möhlət hüququndan istifadə edənlərin sayı artır. Son illərin məlumatlarına əsasən, hər il minlərlə tələbə təhsil aldıqları müddət ərzində hərbi xidmətə çağırışdan azad olunur. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən təqdim edilən məlumatlara görə, 2024-cü ildə bu hüquqdan istifadə edənlərin sayı əvvəlki illə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır. Təhsil möhləti, xüsusilə bakalavr və magistratura pillələrində daha çox tətbiq olunur, çünki bu təhsil səviyyələri üçün möhlət hüququ qanunda xüsusi olaraq tənzimlənir.



Beynəlxalq təcrübə də bu mövzuda maraqlıdır. Dünya ölkələrində təhsil səbəbilə hərbi xidmətdən möhlət hüququ ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Məsələn, Türkiyədə təhsilini davam etdirən tələbələr hərbi xidmətə çağırışdan azad edilir, lakin bu hüquq yalnız 29 yaşa qədər davam edir. Bu yaşdan sonra möhlət hüququ qüvvədən düşür. Almaniyada isə hərbi xidmət könüllü əsaslarla həyata keçirilir və tələbələr təhsillərini tamamladıqdan sonra xidmət etməyi seçə bilərlər. Skandinaviya ölkələrində təhsil və hərbi xidmət paralel şəkildə təşkil olunur. Tələbələr təhsillərinə davam edərkən hərbi xidmətlərini qısa müddətli təlimlər şəklində yerinə yetirirlər.

Azərbaycan təcrübəsi isə əsasən ali təhsili dəstəkləyən və tələbələrin möhlət hüququndan yararlanmasını təmin edən yanaşmadır. Lakin qanunvericilikdə göstərilən tələblər çərçivəsində təhsil ardıcıllığı və əyani formada təhsil almaq əsas şərt olaraq qalır. Bu yanaşma təhsilin dəstəklənməsinə xidmət etsə də, bəzi hallarda təhsil pillələri arasında fasilə verən şəxslərin hüquqlarını məhdudlaşdıra bilər. Məsələn, 27-28 yaşında magistratura təhsilinə daxil olan şəxs, təhsil fasiləsiz olmadıqda möhlət hüququndan istifadə edə bilmir. Bu səbəbdən, hərbi xidmət və təhsil arasında möhlət hüququ məsələsində qanunun tətbiqi fərdi hallara əsaslanaraq araşdırılır.

Azərbaycanda hərbi xidmət və təhsil arasında möhlət hüququnun tətbiqi bir tərəfdən təhsil alan gəncləri dəstəkləsə də, digər tərəfdən bu prosesdə müəyyən məhdudiyyətlər qoyur. Təhsilini davam etdirmək istəyən şəxslər, xüsusilə təhsil pillələri arasında uzun fasilələr verdikdə, bu hüququ itirə bilərlər. Belə hallarda hərbi xidmətə çağırışdan azad olmaq və ya möhlət hüququnu saxlamaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edərək dəqiq məlumat almaq tövsiyə olunur. Bu yanaşma həm şəxsi vəziyyətin dəqiq qiymətləndirilməsinə, həm də qanunun daha düzgün tətbiqinə xidmət edir".

***Ayşən Vəli***

# Bələdiyyə seçkiləri yeni zəfərin növbəti təntənəsi olacaq

Azərbaycanda qəbul edilən hər bir qanun və ya qərarlar insanların daha yaxşı, firavan, təhlükəsiz yaşamasına hesablanıb. Bu baxımdan Azərbaycan dünya miqyasında sabitlik adası olaraq tanınır və qəbul edilir. Məhz qazandığı uğurların, qələbələrin kökündə hüquqi demokratik prinsiplərə sədaqətli olması dayanır. Hər yeni gündə Azərbaycan yeni-yeni parlaq uğurları ilə dostları sevindirib, düşmənlərin bağrını yarır. Qazandığı inama və etimad səbəbindən dünyanın əksər ölkələri, eləcə də aparıcı beynəlxalq təşkilatlar ölkəmizlə iki və çoxtərəfli əməkdaşlığa can atırlar. Ona görə də, bu gün ölkəmiz ən çox əməkdaşlıq əlaqələrinə malik dövlətlərdən hesab edilir. Təbii ki, ölkəmizə olan inam və etimadın əsas amillərdən bir də Azərbaycanın seçkilərə xüsusi önəm verməsi və azad şəffaf seçkilərin keçirilməsi üçün qətiyyətli addımlara atması, prinsipial işlər həyata keçirməsidir. Dəfələrlə seçkiləri müşahidə etmək üçün ölkəmizdə olmuş xarici dövlətlərin və beynəlxalq müşahidəçiləri seçkilərin nümunəvi bir şəkildə baş tutduğunu qeyd edirlər. Seçkilərin azad və demokratik keçirilməsini şərtləndirən əsas amillər sırasında dövlətin qətiyyəti, xalqın iradəsidir. Azərbaycanın Seçki Məcəlləsi hazırlanarkən beynəlxalq təcrübə əsas götürülüb və bu sənəd Avropa Şurasının Venesiya Komissiyasının müsbət rəyini alıb. Bir neçə dəfə Seçki Məcəlləsi üzərində təkmilləş işi aparılıb və vacib sənədlər qəbul olunub. Ölkəmizdə keçilən seçkilər Azərbaycan qanunvericiliyinə və Seçki Məcəlləsinə əsaslanır. Hər bir seçki xalqın iradəsinə uyğun keçilməsi ölkəmizin dünya miqyasında hörmətinin və nüfuzunun artmasına əhəmiyyətli təsir göstərib. Bu günə qədər hər hansı bir ciddi beynəlxalq təşkilat və ya ölkə nümayəndəsi Azərbaycanda keçilən seçkilərlə bağlı mənfi rəy bildirməyib. Görünən və məlum olan fakt ondan ibarətdir ki, seçkiləri yaxından izləmiş istənilən dövlətin və ya beynəlxalq təşkilatın müşahidəçisi ümumxalq tədbirlə bağlı özünün müsbət fikirlərini səsləndirib, açıqlamalarını yayıb. 2024-cü ilin sentyabrın 1-də baş tutan parlament seçkiləri ilə bağlı yerli və xarici müşahidəçilərin birmənalı mövqeyi ondan ibarət oldu ki, seçkilər xalqın iradəsi əsasında, azad və demokratik şəkildə baş tutdu. Parlament seçkilərinin qürurverici məqamları ondan ibarət oldu ki, müstəqillik tariximizdə ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisini əhatə etdi. Yəni işğaldan azad edilən ərazilərdə seçki məntəqələri yaradıldı və seçicilər yüksək fəallıq göstərməklə istədikləri namizədə səs verdilər.






## Yeni, azad, demokratik seçkilərə doğru

Şərəfli, qürur yaradan, fəxr edilən proseslər yanvarın 29-da keçiləcək bələdiyyələrə seçkilərdə bir daha təkrarlanacaq. Daha doğrusu, artıq ölkəmizin hər yerində bələdiyyə seçkilərinə hazırlıq, namizədlərin irəli sürülməsi, onların təbliğat-təşviqat kampaniyası böyük coşqu və bayram əhvali-ruhiyyəsi ilə aparılır. Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə "Tədbirlərin Təqvim Planı"na əsasən, yanvarın 6-dan başlayan seçkiqabağı təşviqat kampaniyası yanvarın 28-dək davam edəcək. Kampaniya çərçivəsində Seçki Məcəlləsinə əsasən, qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri təşviqat işlərini apara bilərlər. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, bələdiyyə seçkilərində 118 seçki dairəsini əhatə edən 685 bələdiyyə üzrə 15 min 696 namizəd qeydə alınıb. Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkilərində seçkiqabağı təşviqat üçün ayrılmış görüş yerlərinin siyahısını da açıqlayıb. Bu isə o deməkdir bələdiyyə seçkilərində qeydə alınmış namizədlər, namizədləri qeydə alınmış siyasi partiyalar müəyyən olunan yerlərdə seçicilərlə görüşə və özlərinin seçki platformalarını açıqlaya bilərlər.

Bir məqamı xüsusi ilə qeyd etmək lazımdır ki, Azərbaycanda demokratik prinsiplərin əsasını yaradan müəyyən məsələlərdən biri də yerli özünüidarəetmə orqanlarının yaradılması və onların fəaliyyət göstərməsidir. Dahi Öndərimiz Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra diqqət göstərilən başlıca məsələlərdən biri də bələdiyyələrin yaradılması olmuşdur. 2 iyul 1999-cu ildə qəbul olunmuş "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa və digər qanunvericilik aktlarına əsasən 1999-cu ilin dekabrın 12-də Azərbaycanda ilk dəfə bələdiyyələrə seçkilər keçirildi. Sonrakı illərdə, yəni 2004, 2009, 2013 və nəhayət 2019-cu illərdə bələdiyyələrə seçkilər keçildi. Ənənə və qanunvericiliyə uyğun olaraq nəzərdə tutulan qaydalar bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır. Seçki günü 18 yaşı tamam olmuş hər bir ölkə vətəndaşı namizədliyini irəli sürmək və uğur qazanacağı təqdirdə bələdiyyələrin fəaliyyətində iştirak etmək hüququna malikdir. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və Seçki Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, aktiv seçki hüququna malik olan hər bir vətəndaşın konstitusiya ilə müəyyən edilmiş bələdiyyə üzvlüyünə namizədlər üçün irəli sürülən tələblərə cavab verdikdə bələdiyyə üzvü seçilmək hüququ - passiv seçki hüququ vardır.

Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslərin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-15.5-ci maddələrində nəzərdə tutulan cinayətlərə görə məhkum olunmuş şəxslərin, ikili vətəndaşlığı olan Azərbaycan Respublikası vətəndaşlarının (ikili vətəndaşlığı qalanadək), xarici dövlətlər qarşısında öhdəlikləri olan Azərbaycan Respublikası vətəndaşlarının (həmin öhdəliklərə xitam verilənədək) bələdiyyə üzvü seçilmək hüququ yoxdur.

Hərbi qulluqçular (hərbi qulluqda olduqları müddətdə), hakimlər (hakim olduqları müddətdə), dövlət qulluqçuları (dövlət qulluğunda olduqları müddətdə), din xadimləri (peşəkar din fəliyyəti ilə məşğul olduğları müddətdə) bələdiyyə üzvü ola bilməzlər. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır.

## Bələdiyyələr ərazilərin inkişafına xüsusi töhfələr verə bilir

Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsinə müvafiq olaraq Azərbaycanda yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Bələdiyyələr seçkilər əsasında yaradılır. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsinə uyğun olaraq, bələdiyyə - qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyə orqanları dedikdə isə bələdiyyə tərəfindən yaradılan, yerli əhəmiyyətli məsələləri həll etmək səlahiyyəti verilən və dövlət orqanları sisteminə daxil olmayan orqanlar başa düşülür. Bələdiyyələr, bir qayda olaraq bələdiyyə iclasından, daimi və başqa komissiyalardan və icra orqanından ibarətdir. Bələdiyyənin hər bir orqanının fəaliyyət qaydası "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.Bələdiyyələr nümayəndəli orqan kimi seçkilər əsasında yaradılır. Bələdiyyələrə seçkilərin keçirilməsi qaydası 2003-cü il 27 may tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən edilir. Seçki Məcəlləsinin VII bölməsi (210-246-cı maddələr) bələdiyyə seçkilərinə həsr olunmuşdur. Bələdiyyə üzvlərini seçicilər bilavasitə seçirlər. Seçicilər şəxsən və gizli səs verirlər. Seçkilərdə seçicilərin öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir.

Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir. Bələdiyyələrin səlahiyyət müddətinin hesablanması səsvermənin keçirildiyi gündən başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir.

Əminliklə qeyd etmək olar ki, 29 yanvarda keçiləcək bələdiyyə seçkilərində formalaşacaq bələdiyyə üzvlərin ərazilərin inkişafında, əhalinin sosial-məişət problemlərinin həllində, ərazilər üzrə yeni iş yerlərinin yaradılmasında və digər məsələlərə öz töhfələrini verəcəklər.

***İLHAM ƏLİYEV***

# Müəllim-şagird-valideyn üçbucağı olmasa...

***Müəllim-şagird münasibətləri bütün dövrlərdə aktual mövzu olub. Bu münasibətlər fonunda belə bir fikir formalaşıb ki, müəllim ikinci valideyndir. Yəni, günün yarısını məktəblərdə olan uşaqlara təbii ki, müəllim münasibəti, yanaşması, yaxşı mənada, onun təhsili ilə yanaşı, tərbiyəsində də mühüm əhəmiyyət kəsb edir.***

Orta yaş qrupunda olan insanların hər biri yaxşı xatırlayar ki, o dövrlərdə məktəblərdə çox gözəl müəllim-şagird münasibətləri var idi. Valideynlərin bizə evdə təbliğatı isə məktəbdə müəllimlərə hörmət etməyimizlə, sayğı ilə yanaşmağımızla bağlı olardı. Bu səbəbdən də biz, sözün həqiqi mənasında, müəllimləri ikinci valideynimiz bilir və onların hər bir təlim-tərbiyəsinə əməl edirdik. Lakin müasir dövrdə müəllim-şagird münasibətləri, çox halda, o dövrdəkilərə əsla bənzəmir. Tez-tez eşitdiyimiz xoşagəlməz münasibətlər fonunda düşünürük ki, bunun sonu necə olacaq? Bu barədə bir qədər ətraflı danışaq.



## Xatırlayıram ki...

Bəli, o dövrdə müəllimlər ikinci valideynimiz idi. Qadın müəllimlər qızların anası, kişi müəllimlər oğlanların atası kimi bizə yanaşır, dövrdə uşağa, o yana çəkil, demək olmur. Valideyn məktəbə gəlir, səninlə sanki üsyana başlayır.

Valideyn deyir ki, müəllim mənim uşağıma dərs deyə bilər, ona hirslənə, tənbeh edə bilməz. Bax elə problem də buradan başlanır. Deməli, günün yarıdan çoxunu məktəbdə olan şagird hər hansı bir səhv hərəkət edirsə, səhv söz danışırsa, müəllim onun bu hərəkətinə göz yummalı, danışdığı sözü qulaqardına vurmalıdır. Onda, əziz valideyn, sən bu uşağın gələcəyindən heç nə gözləmə. Məsələ aydındır, düşünürəm ki, əlavə izaha ehtiyac yoxdur.

Lakin onu vurğulamaq istəyirəm ki, bu cür düşünmək heç də düz deyil. Çünki istər, ev, istər məktəb olsun, səhv hərəkətin qarşısı dərhal alınmayanda bu, növbəti səhvə yol açır. Belə isə nə üçün müəllim uşağı tənbeh edə bilməz? Axı bu tərbiyə prosesində həm də valideynə köməklikdir. Bir də axı valideyn övladını olduğu kimi tanıya bilmir. Lakin müəllim onun uşaqlar arasındakı hərəkətlərini daha yaxşı görür və əgər qarşısı alınmazsa, bu, onun xarakterinə elə bir formada çökür ki, sonra onu tərbiyə etmək çətinləşir.






hər səhvimizi, qüsurumuzu o qədər incəliklə aradan qaldırırdılar ki, ruhumuz belə incimirdi. Yadımdadır, bir dəfə sinfimizdə qızlardan biri tənəffüs zamanı çantaları axtarıb pul götürmüşdü. Qızlardan biri bunu görmüşdü, lakin uşaqlara yox, birbaşa sinif rəhbərimizə demişdi. Təsadüfən də həmin saat sinif rəhbərinin dərsi idi. Dərs normal, sakit şəkildə keçdi. Zəng çalınanda müəllim qızlara qalmalarını, oğlanlara getmələrini dedi. Oğlanlar getdilər. Müəllim bizimlə söhbətə başladı. Bəlkə də o vaxt anlamazdıq. Lakin bu gündən həmin söhbətə qayıdanda müəllimin bizləri necə incəliklə başa salması, söhbəti necə bacarıqla açması, necə həssaslıqla aparması qarşısında baş əyməli oluram. Bir sözlə, söhbət o qədər mənalı, təsiredici oldu ki, növbəti tənəffüsdən sonra pullarımızı çantalarımızda gördük. Sinif yoldaşımız hər kəsin pulunu götürdüyü kimi də yerinə qoymuşdu.

Tək sinif rəhbərimiz yox, bütün fənn müəllimlərimiz dərsdə baş verən hər hansı bir kiçik hadisə üçün tənəffüs zamanı bizi saxlayır, söhbət edir, araşdırma aparırdı.

Əmək təlimi fənnini tədris edən müəllimimizin dilində hərf səsləndirmə problemi var idi. Bir dəfə oğlanlardan biri dərs başlayandan bir neçə dəqiqə sonra gəldi. Qapını döyüb içəri keçdi və müəllim ondan nə üçün yubandığını soruşdu və hirsləndi. O da qapını açıb çıxıb gedəndə müəllimin həmin qüsurunu göstərən tərzdə danışdı. Düzü, bu hamımıza çox pis təsir etdi. Müəllim isə heç bir kəlmə də danışmadı. Özünü elə apardı ki, sanki eşitməyib. Biz də sevindik ki, yaxşı ki, müəllim eşitməyib.

Sən demə, müəllim eşidibmiş, həm də çox gözəl eşidibmiş. Növbəti dərsdə bunun şahidi olduq. Həmin oğlanı müəllim elə bir tərzdə başa saldı ki, bütün sinif uşaqları xəcalət çəkdik. Və bu, son hal oldu. Tənəffüs zamanı isə hamımız bir nəfər kimi həmin oğlanın üstünə getdik, hərəkətinə görə onu yaxşıca tənbeh etdik. O da qıpqırmızı olmuşdu. Hiss olunurdu ki, səhvini anlayıb.

Ədəbiyyat müəllimimiz vardı. Bizə həm ədəbiyyatdan, həm də həyatdan dərs verirdi. Davranışımızın ən kiçik detallarınadək geniş şəkildə danışır, hər birimizin əsl insan olması üçün əlindən gələni edirdi. Sinfimizdə bir oğlan vardı, yaxşı oxumurdu. Bir dəfə onu elə gözəl şəkildə tənbeh etdi ki, uşaqlığımızla müəllimimizə, afərin, dedik.

Həmin oğlanın atası fəhlə idi. İşi də çətindi. Müəllim onu dərsi danışmağa qaldırdı. O da susub dayandı, bilmirdi çünki. Müəllim, "niyə dərsini oxumamısan, işinin adı nədir?" deyərək təsirli bir söhbətə başladı. Oxumağının, təhsilinin atasına gələcəkdə böyük kömək olacağını, onun fəxri ola bilməsini elə həssaslıqla izah etdi ki, oğlan utandığından başını aşağı saldı. Ta bundan sonra onun bir dəfə də olsun dərsə hazırlıqsız gəldiyini görmədik.

Artıq yuxarı siniflərdə oxuyurduq. Sinfimizdə bir qız çox kilolu idi. Həmişə də əyninə gen-geniş ətək, köynək geyinirdi. Bir dəfə yenə sinif rəhbərimizlə söhbət edirdik. Müəllim o qıza məsləhət gördü ki, həmişə əyninə görə paltar geyinsin, bu gen paltarlar onu daha da kilolu göstərir.

İndi həmin günlərə qayıdıb bütün olanları, hansı ki, söylədiklərim olanların çox az bir hissəsidir, yada salanda həqiqətən özümüzü müəllimlərimizə borclu hesab etməyə bilmirik. Onlar bizə tək elmin sirlərini deyil, həyatın sirlərini, insanlığı, insanpərvərliyi, vətənpərvərliyi, böyüyə-kiçiyə hörmət hissini, harada özümüzü necə aparmağın lazım olduğunu aşılayıblar. Bu səbəbdəndir ki, onları hər zaman böyük hörmət və sayğı ilə anırıq, harada görsək elə bil valideynimizi görürmüş kimi ülvi hisslər keçiririk.

## Müəllim-şagird münasibətləri müasir dövrdə

İndi o dövrün müəllimlərindən, onların hər bir uşağa münasibətindən söhbət düşəndə, əşi, o dövr ayrı dövr idi, deyirlər. Maraqlıdır, görəsən dəyişən nədir ki? Yenə də məktəb varsa, müəllim, şagird, valideyn varsa, təlim-tərbiyə varsa, bəs dəyişən nədir? Müəllimlər şagirdləri öz övladları kimi görmür, yoxsa şagirdlər müəllimlərin onların ikinci valideyni olmasını istəmirlər? Yoxsa valideynlər öz missiyalarını məktəb saatlarında müəllimlərə etibar etmirlər? Hansıdır, görəsən?

Həm şagird, həm müəllim, həm valideynlərlə apardığımız söhbət əsnasında məlum olur ki, hər üç subyekt bu münasibətlərin "müasirləşməsində" böyük rol oynayır. Düzdür, indi danışacaqlarım bütün valideynlərə, şagirdlərə, müəllimlərə aid deyil. Lakin çox təəssüf ki, onlar arasında belələri var.

İndi bəzi müəllimlər uşaqlardan, uşaqlar və valideynlər isə müəllimlərdən güleylidir. Nə üçün? Bunun üçün kiçik bir araşdırma apardıq. Məsələn, müəllim deyir ki, indiki

Hər bir uşaq arxayın olanda ki, müəllim onun hansı bir səhv hərəkətinə göz yumacaq, görün bunun sonu nə ilə nəticələnə bilər. Belə çıxır ki, uşağın etdiyi səhvlər cavabsız qalır. Valideyn deyir ki, uşağımın səhvlərini deyin, mən özüm tənbeh edim. Bəli, bu da doğru fikirdir. Lakin ikitərəfli tənbeh daha təsirli deyilmi? Biri var, dərhal müdaxilə, biri də var, bir neçə saatdan sonra müdaxilə. Bir də ki, biz uşağımızı müəllimlərə saatlarla etibar ediriksə, nə üçün onun tərbiyəsinə nəzarəti də onun öhdəsinə verməyək?

## Tədris və təlim-tərbiyə yanaşı olanda...

Cəmiyyətə o zaman yaxşı yetişdirilmiş gənc vermək olar ki, məktəblərdə tədrislə təlim-tərbiyə birgə həyata keçirilsin. Uzun illər bu, belə də olub. Yəni, məntiqlə də fikirləşəndə, istər təhsil aldığımız, istər çalışdığımız müəssisələrdə təlim-tərbiyə qaydalarına riayət etmək hər kəsin borcudur. Məktəbdə isə bu, vacibdir. Baxmayaraq ki, indi uşaq bir səhv hərəkət edəndə və müəllim onu tənbeh edəndə bəzi valideynlər var ki, sosial şəbəkələrdən gəlir, lakin belə deyil. Hər kəs borcludur ki, məktəbin qayda-qanunlarına tabe olsun. Biz nə qədər ki, övladlarımızın başına tumar çəkirik, nə qədər boş yerə onları müdafiə ediriksə, inanın, bunun yaxşı nəticəsi olmayacaq.



Nə üçün öz məktəb illərimizin təcrübəsindən istifadə etmirik? Axı hər birimiz o dövrdə təhsil almışıq, müəllim-şagird münasibətlərinin nəticələrindən bəhrələnmişik. Belə olan təqdirdə nə üçün bu metodun əleyhinə çıxırıq? Bizi bəli, bu sosial şəbəkələr, internet aləmi bu günlərə gətirib çıxarıb. Orada gördüklərimiz, oxuduqlarımız bizdə bu fikirləri formalaşdırıb. Lakin orada gördüklərimiz bizi milli dəyərlərimizdən qoparmaq üçün şüurlarımıza yeridilənlərdir. Biz nə edirik? Onlari rədd edib, öz yolumuzla getmək əvəzinə, cəmiyyətimizə, həyat tərzimizə uyğun olmayanların ardınca gedir, onları həyatımıza daxil edirik. Lakin bu, heç yaxşı hal deyil və bu barədə əməlli-başlı düşünmək gərəkdir.

Müəllim-şagird münasibətlərinin bir tərəfindən-yəni valideynlərlə bağlı tərəfindən danışdıq. İndi isə bir qədər də müəllimlərə aid tərəfindən danışaq. Bəli, bu gün məktəblərimizdə müəllimlər var ki, valideynlər onlar haqqında güleylənməkdə haqlıdır. Bu cür müəllimlər müəllim-şagird-valideyn üçbucağına xələl gətirir.

Ümumiyyətlə, düşünürəm ki, müəllim hər zaman özünü bu ada layiq aparmalı, ona hörmətlə yanaşmalı, heç bir təqdirdə bu ada xələl gətirməməlidir. Yəni səhv etmiş bir uşağa elə bir tərzdə yanaşılmalıdır ki, onun şəxsiyyətinə xələl gəlməsin, uşaqların içərisində pis vəziyyətə düşməsin. Belə olanda təbii ki, uşaq da müəllimə cavab qaytarır. Və müəllim düşünür ki, mən nə desəm olar, lakin uşaq mənə cavab verməməlidir. Lakin bax, burada səhvik. Çünki xarakterlər, xasiyyətlər bir-birinə bənzəmir. Müəllim hər xarakterdə uşaqla qarşılaşa bilir və onların hamısı ilə eyni rəftar edə bilmir.

Adının çəkilməsini istəməyən bir valideyn deyir ki, bu günlərdə övladının təhsil aldığı orta məktəbin sanitar qovşağında yuxarı sinif şagirdləri siqaret çəkibmişlər. Onun övladı da həmin vaxt oraya getdiyi üçün ondan həmin uşaqların kim olduğunu öyrənməyə çalışıblar. Lakin uşaq onların kim olduğu haqda məlumat vermək istəməyib. Belə olanda müəllim uşağı sinifdən çıxarıb. Bu faktla bağlı düşünürəm ki, burada bəli, günah müəllimdədir. Birincisi, heç bir məsələ ilə əlaqədar şagirdi dərs prosesindən ayırmaq olmaz. İkincisi, gördüyü nə isə haqda danışmaq istəməyən şagirdi zorla danışmağa vadar etmək olmaz. Yaxşı olar ki, növbətçi müəllimlər məktəbə nəzarəti gücləndirsin və nə baş verdiyini özləri aşkar etsinlər. Yuxarı sinif şagirdləri ilə aşağı sinif şagirdini qarşı-qarşıya qoymaq heç də düzgün hal deyil.

Müasir dövrümüzdə müəllimlər var ki, şagirdi adi səhvi üçün bütün uşaqların içərisində təhqir edir. Belə olanda isə təbii ki, valideyn də işə qarışır və müəllimdən uşağına qarşı doğru hərəkət etməsini tələb edir. Beləliklə, münasibətlər korlanır, tədrislə təlim-tərbiyənin birgə həyata keçirilməsinə maneçilik yaranır.

### Bəs bu münasibətlərin qorunması üçün nə etməli?

Yaxşı olar ki, yuxarıda da qeyd etdiyim kimi, müəllim müəllim adına böyük ehtiramla yanaşsın. Valideyn də boş yerə övladını müdafiə etməsin. Uşaq məktəbdə-dərs prosesində hansı bir səhvə yol verirsə, onu müəllim-valideyn eyni dərəcədə qınayarsa, bəli, bunun gözəl nəticəsi ola bilər. Yox, əgər, müəllim bunun valideyni gəlib şikayət edər, məni işdən çıxararlar deyirsə, yəni valideynlər buna şərait yaradırlarsa, onda özlərindən küssünlər. Övladlarının da xoşbəxt gələcəyi haqda fikirləşməsinlər.

Məktəb tək tədrisi yerinə yetirərsə, övladlarımız kor olar. O mənada ki, əxlaqı yerində olmayan təhsilli insan kimin nəyinə gərəkdir. Bizim cəmiyyətimizə verə biləcəyimiz ən layiqli övlad təhsili ilə yanaşı, tərbiyəsi və əxlaqı gözəl olan gənclərdir. Buna isə yalnız məktəblərdə nail ola bilərik.

Bəzi müəllimlərin də məktəblərdə necə deyərlər, hegamonluq etməsi, bəzi valideynlərin də məktəblərə hücum çəkməsi, övladının səhvinə görə məktəb kollektivini günahlandırması haqqında onlarla faktımız var. Bütün bu faktlara nəzər salanda, analiz edəndə isə belə qənaətə gəlmək olar ki, çox gözəl ənənələr üzərində qurulan təhsil ocaqlarımızı bir neçə müəllim və valideynin səhv addımları, danışıqları, hərəkətləri ilə günahlandırmaq olmaz. Biz çalışmalıyıq ki, ictimai qınaqla həmin müəllimlərə də, valideynlərə də səhv etdiklərini anladaq. Bunu bacararıqsa, gələcəyimiz olan uşaqları xilas etmiş olarıq. Bunu bacararıqsa, yuxarıda da haqqında danışdığım gözəl müəllim-şagird münasibətlərini davam etdirə bilərik.

Valideynlər oturub yaxşı-yaxşı fikirləşməlidir. Sosial şəbəkələrdə onlara diktə olunanlara ağıllarını verməməlidirlər. Bizim xalqın milli dəyərləri var, bunu sosial şəbəkələrdə gördükləri ilə qarışdırmasınlar. Olar ki, hansı bir xarici ölkədə uşağı özbaşına buraxarlar. Deyərlər ki, məktəbdə istənilən hərəkətinə görə ona heç kim bir kəlmə söz deyə bilməz. Lakin inanın ki, belə bir ölkə ola bilməz. Bütün bu barədə gördükləriniz uydurma, hansısa bir xalqın mentalitetini darmadağın etmək üçün uydurulan, beyinlərə axıdılan vasitələrdir.

Övladımız hansı məktəbdə təhsil alırsa, ora onun ikinci evi, müəllimlər isə ikinci valideynləridir. Biz bunu nə qədər ki, bu cür qəbul edirik, cəmiyyətə də layiqli vətəndaşlar verə biləcəyik. Nə qədər ki, müəllim öz peşəsinə, müəllim adına hörmətlə yanaşır, məktəblərdə tədrislə yanaşı, təlim-tərbiyə də yüksək səviyyədə olacaqdır. Biz bunlara nail olmağa, olanlarımızı qorumağa çalışmalıyıq. Əks təqdirdə isə dediklərimizin bir neçə ildən sonra nə qədər doğru olduğunu hər kəs görəcəkdir. Bir sözlə, o yerdə təhsil, təlim-tərbiyə yerində olur ki, orada müəllim-şagird-valideyn üçbucağı var və bütün problemlər bu üçbucağın bir-birini anlaması ilə həllini tapır.

***Mətanət Məmmədova***



## “Nikol Paşinyan bu addımı ilə öz sələflərinin irqçi siyasətini davam etdirir”

### Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu bəyanat yayıb

***Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın çıxışı ilə bağlı bəyanat yayıb. SİA-nın məlumatına görə, bəyanatda xatırladılıb ki, Ermənistanın 1987-ci ildə başlatdığı münaqişə Azərbaycan xalqını misilsiz əzablara düçar edib: ”Ermənistanın təcavüzkar siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı doğma yurdlarından didərgin salınıb. Azərbaycanlıların qaçqın və məcburi köçkün vəziyyətinə salınması münaqişənin yan təsiri deyil, Ermənistanın birbaşa hədəflədiyi və planlı şəkildə həyata keçirdiyi etnik təmizləmənin nəticəsi idi”. Bəyanatda vurğulanıb ki, bu cinayətlərin kökündə Ermənistanın siyasi mühitində dərin kök salmış irqçilik dayanır.***

”Ermənistanda irqçilik dövlət siyasəti kimi institusionallaşdırılıb. Bu dövlət öz ərazisində və otuz il ərzində işğal altında saxladığı Azərbaycan torpaqlarında total və sistematik etnik təmizləmə həyata keçirib. Bundan əlavə, Ermənistan həmin ərazilərdə azərbaycanlıların mədəni irsini tam şəkildə məhv edib, Azərbaycanın təbii sərvətlərini, ictimai və şəxsi əmlakını talayıb və Azərbaycan ərazilərini məqsədli şəkildə kütləvi sayda minalarla çirkləndirib”, - bəyanatda deyilir.

Bildirilib ki, Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyanın 23 iyul 1993-cü ildə etdiyi çıxışın ortaya çıxmış videoyazısı bunu bir daha sübut edir: ”Bu çıxışında Ter-Petrosyan azərbaycanlıların Ermənistandan və işğal edilmiş Azərbaycan ərazilərindən etnik təmizlənməsini ”tarixi nailiyyət” kimi təsvir etmişdir. Levon Ter-Petrosyanın prezident qismində səsləndirdiyi və onun özünün hakimiyyəti dövründə baş vermiş işğal və etnik təmizləməni dövlət siyasəti kimi təqdim edən bu bəyanat, sözügedən cinayətlərə görə Ermənistanın dövlət kimi məsuliyyətini və bu cinayətlərin sistematik və mütəşəkkil şəkildə törədilməsini birmənalı şəkildə sübut edir”.

Qeyd olunub ki, Ermənistanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, bu siyasət dəyişmədən davam etmişdir. ”Levon Ter-Petrosyanın xələfi, keçmiş prezident, qaniçən hərbi cani Robert Koçaryan, azərbaycanlılarla ermənilərin ”etnik və genetik uyğunsuzluğu” kimi irqçi ideyaları təbliğ edirdi. Digər keçmiş prezident və hərbi cani Serj Sarkisyan isə 1992-ci ildə azərbaycanlı mülki şəxslərin Xocalıda qətliamında oynadığı rolu ilə açıq şəkildə öyünür və nasist general Qaregin Njdenin faşist ideologiyasını rəsmi dövlət siyasəti kimi qəbul etmişdi. Vaxtilə ”Qarabağ Ermənistandır” deyərək ilhaqçılıq siyasəti aparan hazırkı Baş nazir Nikol Paşinyan da Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışına imkan verməməklə, öz sələflərinin irqçi siyasətini davam etdirir”.

Təşəbbüs qrupu bəyan edib ki, Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi irqçi və revanşist siyasəti kontekstində onun hazırda apardığı genişmiqyaslı silahlanma, sülh və təhlükəsizliyə ciddi təhlükə yaradır: ”Prezident İlham Əliyev 2024-cü il yanvarın 7-də Azərbaycan mediasına verdiyi müsahibəsində Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi irqçilik, zorakı ekstremizm, revanşizm və militarizmin yaratdığı təhdidin miqyasını dəqiq ifadə etmişdir. Biz Prezident İlham Əliyevin regionda sülh və sabitliyin bərqərar olunmasına dair baxışını və Ermənistana ünvanladığı tələbləri tam və birmənalı şəkildə dəstəkləyirik. Həmçinin, bu fürsətdən istifadə edərək, Qərbi azərbaycanlıların doğma yurdlarına sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasına verdiyi möhkəm dəstəyə görə cənab Prezidentə dərin təşəkkürümüzü bildiririk”.

Qeyd olunub ki, beynəlxalq ictimaiyyət, o cümlədən parlamentlər, Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi irqçiliyə və insan hüquqları pozuntularına, habelə onun sürətli və genişmiqyaslı silahlanmasına biganə qalmamalıdırlar, Birləşmiş Millətlər Təşkilatının üzvü və bir çox beynəlxalq insan hüquqları konvensiyalarının tərəfi kimi Ermənistan bu hərəkətlərinə görə məsuliyyətə cəlb edilməli və onun silahlanmasının qarşısı alınmalıdır: ”Biz beynəlxalq ictimaiyyəti Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi sistematik irqçiliyi və etnik təmizləmə siyasətini pisləməyə çağırır, Ermənistan hökumətindən isə silahlanmanı dərhal dayandırmağı, irqçi siyasətdən imtina etməyi, Qərbi azərbaycanlıların doğma yurdlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını təmin etməyi və bu məqsədlə Qərbi Azərbaycan İcması ilə dialoqa başlamağı tələb edirik”.

Xatırladaq ki, L.Ter-Petrosyan çıxışında deyib: ”Ermənistan və Dağlıq Qarabağ erməni xalqının 600 il həll edə bilmədiyi problemi həll etdi. Ermənistan və Artsax tamamilə əcnəbilərdən təmizləndi. Yenə deyirəm, bu, 600 illik problem idi və onun əhəmiyyətini erməni xalqı hələ 600 il də bundan sonra hiss edəcək. Təsəvvür edin, bu gün Ermənistanda 180 min əcnəbi olsaydı, bu gün bizim dövlətimiz olmazdı. Zəngəzuru qoruya, şimal-şərq rayonlarımızı qoruya, Sevan sahilini qoruya bilməzdik, burada bir neçə yeni muxtariyyətimiz olacaqdı. Yada salaq ki, azərbaycanlılar üç bölgədə çoxluq təşkil edirdi: Vardenis, Masis, Amasiya - bütün Zəngəzur zonasında onların sayı çox idi. Bu problem həll olundu”.

# Ermənistanın əl atdığı SİYASİ MANİPULYASİYALAR

***İşğalçı ölkənin, eləcə də həmin ölkə hakimiyyətinin çətin durumda olduğu günün reallığıdır və bunu təsdiq edən məqamlar kifayət qədərdir. Hazırda erməni baş nazir Nikol Paşinyanın və onun hakimiyyət komandasının hansı müəmmalı vəziyyətdə olması özü belə bəzi məsələlərə aydınlıq gətirmək üçün yetərlidir. Xüsusən də, daxili və xarici "təsirlərdən" ehtiyat edən, daha doğrusu, əməlli-başlı qorxu kompleksi keçirən Ermənistan hakimiyyəti çıxış yolunu az da olsa vaxt qazanmaq məqsədi ilə siyasi manipulyasiyalara əl atmaqda görür.***




## Vəziyyətin çətin, durumun ağır olması hələ çox manipulyasiyalara əl atılmasına sövq edə bilər

İndi işğalçı ölkənin acınacaqlı durumunu, həmin ölkə üçün gözlənilən təhlükələri Paşinyan hakimiyyəti lap yaxşı başa düşür, amma qətiyyətli addım ataraq və siyasi iradə nümayiş etdirərək doğru yolu tuta bilmir. Əvvələ ona görə ki, Ermənistanın mövcud hakimiyyəti daxili auditoriyadan əhəmiyyətli dərəcədə çəkinir və qorxur. Qorxur ki, haylar qəflətən küçələrə çıxıb hakimiyyət dəyişikliyi tələb edə, hazırkı hakimiyyəti devirə, dövlət çevrilişini reallaşdıra bilərlər və hər halda, hakimiyyət kürsüsünü ələ keçirmək üçün küçə nümayişlərindən vasitə olaraq istifadə edən birinin, yəni, erməni baş nazirin belə bir qorxu kompleksi başadüşüləndir. Xüsusən də ona görə Paşinyan daxili auditoriyadan, Ermənistan cəmiyyətinin sərt reaksiyasından qorxur ki, həmin o sərt reaksiyanın qarşısını almaq "gücündə" və iqtidarında olmadığının fərqindədir.

İndi Nikol Paşinyan və onun ətrafı qorxur ki, işğalçı ölkə üçün ən doğru yol olan istiqamətə doğru addım atılacağı, Azərbaycanla sülh danışıqlarına başlayacağı təqdirdə belə həmin o işğalçı ölkədə rezonans yarana bilər və bu "titrəyiş" də indiki hakimiyyətin devrilməsinə rəvac verər. Bir sözlə, Nikol Paşinyan və onun komandası ən doğru yolu belə tutmaqdan çox bərk qorxur və yenə də ənənələrinə sadiq qalaraq, məsələni uzatmaq, bununla da mümkün qədər vaxt qazanmaq üçün bütün mümkün variantlara əl atır. Əslində, həmin variantlar dedikdə, elə siyasi manipulyasiyalar nəzərdə tutulur və belə bir seçim Ermənistan hakimiyyəti üçün birinci, çox güman ki, heç sonuncu da deyil. Çünki hazırda rəsmi İrəvanın vəziyyətinin nə qədər çətin, durumunun nə qədər ağır, nə qədər mürəkkəb olduğu heç kim üçün, xüsusən də erməni baş nazirin özü üçün də sirr deyil və belə bir halın hələ çox "variantlar" axtarmağa, hələ çox manipulyasiyalar etməyə sövq edəcəyi zərrə qədər də şübhə doğurmur.

## İşğalçı ölkə hakimiyyətinin "xarici təsirlərdən" qorxması, məhz asılı vəziyyətdə olması fonunda başadüşüləndir

Nəzərdən qaçırmaq lazım deyil ki, Nikol Paşinyan və onun ətrafı eyni zamanda xarici "təsirlərdən" də qorxur. Onsuz da ixtiyarı öz əlində olmayan, müstəqil qərarlar verə bilməyən Ermənistan hakimiyyətinin, ümumiyyətlə, asılı vəziyyətdə olan erməni cəmiyyətinin xarici təsirlərdən qorxması əslində, məntiqidir. Çünki həmin o işğalçı ölkəni qızışdıraraq oyunlara salanların böyük əksəriyyətinin xarici təsirlərdən qaynaqlandığı da bəllidir. Bəlli olan odur ki, indi ortalığa yuyulmamış qaşıq kimi atılan və haylara fəlakət vəd edən mənasız "qisas" niyyətini gizlətməyənlərin hansı qüvvələrin ssenarisi ilə "səhnəcik" qurmalarını anlamaları fonunda Paşinyan və onun hakimiyyət komandası qorxudan gecələr də yuxularını qarışdırır.

Onsuz da xarici oyunçulardan asılı vəziyyətdə olan və suverenliyindən söhbət belə gedə bilməyən Ermənistan bir marionet ölkə kimi çoxdan oyunlara alət hesab olunur. Bu alət olan ölkədə siyasi iradə nümayiş etdirmək də Nikol Paşinyana çox "ağır gəlir" və öhdəsindən gələ biləcəyinə heç özü də inanmır. İnana da bilməz axı. Çünki özü belə "beynəlxalq himayədarlardan" asılı vəziyyətdə olduğunu hayların hamısından yaxşı bilir. Bilir ki, ABŞ, Avropa Birliyi, eləcə də Fransa kimi ölkələrin "maraqlarına" zərrə qədər toxunan addım atmaq istəsə, nəinki hakimiyyət kürsüsündən, hətta həyatından belə məhrum ola bilər. Yaxşı başa düşür ki, onu hakimiyyətdən "götürmək" Qərb üçün ən asan məsələdir və belə olan halda, cətin olan yenə də öz durumu olacaq. Məhz buna görə də "xarici təsirlərdən" yaman qorxur. Məhz elə bu qorxunu özündən uzaqlaşdırmaq, eləcə də kimlərinsə "qucağına" atılmaq üçün bir variant tapmağa çalışır və siyasi manipulyasiyalara əl atması da bundan irəli gəlir...

## Son təxribatlar, sərhədin bir neçə istiqamətində atəşkəsin pozması Avropa İttifaqı missiyasının vaxtının uzadılması üçün bir manipulyasiyadır

Məsələ burasındadır ki, ilanın gülləyə tərəf atılması misalında, Paşinyan və onun hakimiyyət komandası da özlərinə çətinlik törədənlərin "qucağına" atılmağı xilas yolu hesab edir. Məhz belə hesab etdiyi üçün də Avropa İttifaqı missiyasının "ətəyindən" bərk yapışmaq qərarına gəlib. Xüsusən də cari ilin fevral ayının 19-da həmin missiyanın vaxtının bitməsini nəzərə alaraq, "variant" axtarışı təsdiq edir ki, Avropa İttifaqı missiyasının vaxtının uzadılmasını hazırki Ermənistan hakimiyyəti zərurət hesab edir və buna görə də manipulyasiyalara əl atır.

Görünən odur ki, Paşinyan və onun hakimiyyət komandası da, elə məhz Brüssel özü də Avropa İttifaqı missiyasının vaxtının uzadılmasında maraqlıdır. Xüsusən də rəsmi İrəvan indi elə hesab edir ki, həmin missiya onlar üçün bir növ "qalxan" sayıla bilər və elə ona görə də həmin missiyanın vaxtının uzadılmasına çalışır. Yeri gəlmişkən, missiyanın vaxtının uzadılmasına Brüssel özü də Cənubi Qafqazda mövcudluq platforması kimi baxır. Buna görə də Ermənistan tərəfinin təxribatlarına belə göz yumur və şübhəsiz ki, hələ üstəlik bir "təkan" da verir. Çünki belə olmasaydı, 44 günlük müharibədəki rüsvayçı məğlubiyyətin ardınca Ermənistan tərəfi atəşkəsi pozmaq "cəsarətini" özündə tapa bilməzdi.

Bəli, Ermənistan tərəfinin son təxribatları, sərhədin bir neçə istiqamətində atəşkəsi pozması Paşinyan hakimiyyətinin məhz Avropa İttifaqı missiyasının vaxtının uzadılması üçün, yəni, guya ki, gərəkli olduğunu göstərməsi üçün bir manipulyasiya hesab olunur. Ermənistan tərəfinin məhz həmin missiyanın vaxtını uzatmaq, mövcudluğunu qorumaq üçün təxribatlara əl atdığı zərrə qədər də şübhə doğurmur. Bir sözlə, rəsmi İrəvan doğru yolu seçmək, düzgün istiqamət götürmək əvəzinə, yenə də siyasi manipulyasiyalara əl atır. Yenə də hansısa manipulyasiyalarla vaxt qazanmağa çalışır. Kor tutduğunu buraxmadığı kimi Nikol Paşinyan da, onun hakimiyyət komandası da manipulyasiya yolunu buraxmaq istəmir. Çünki bundan başqa bir addım atmaq üçün işğalçı ölkə hakimiyyətində siyasi iradə yoxdur. Sözsüz ki, belə bir siyasi iradə, yaxud qətiyyət olmadığı təqdirdə, hələ bundan sonra da siyasi manipulyasiyalara əl atılacağı gözlənilləndir.

***İnam Hacıyev***

# “Biz çox şeyi unudub telefona yapışdıq”



***Son illərdə televiziya ənənəvi informasiya və əyləncə mənbəyi kimi populyarlığını tədricən itirir. Bunun əksinə olaraq, sosial şəbəkələr sürətli inkişaf edərək insanların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib. Xüsusilə gənc nəsil xəbərləri, əyləncəni və sosial əlaqələri televiziya əvəzinə sosial platformalar vasitəsilə əldə etməyə üstünlük verir. Televiziya proqramlarının məhdud vaxt cədvəli və təkyönlü kommunikasiya forması sosial şəbəkələrin interaktiv və ani məlumat paylaşımı ilə müqayisədə geri planda qalmasına səbəb olur. Bu tendensiya media istehlakında ciddi dəyişikliklərə yol açaraq, informasiya əldəetmə vərdişlərimizi köklü şəkildə dəyişir. Bəs bəzi vətəndaşlar indiki dövrdə televiziya niyə maraq göstərmir? Sosial şəbəkələrə marağın artması nədən irəli gəlir? Bu barədə SİA vətəndaşların fikirlərini öyrənib.***

**Şəhər sakini Sevil Əhmədova:** ”Televiziyaya marağın azalmasının səbəbi hər kəsin əlində bir telefonun olmasıdır. Komputer



və telefonlardan istifadəyə görə artıq televiziyaya vaxt qalmır. İkinci səbəb isə o qədər də maraqlı verilişlərin olmamasıdır. Əvvəllər televiziyada xoşagələn verilişlər hazırlanırdı, indi nə hazırlanır? Biri paltarını, geyimini, digəri isə ev əşyalarını, istirahət etdiyi yerləri göstərirlər, bunlar kimə maraqlıdır axı? Mən Soveti görmüş insanam, onun vaxtında çox şeylər doğru-dürüst olurdu, yəni insanlara lazım olan verilişlər hazırlanıb göstərilirdi. İndi o göstərilənlər lazım deyil, şəxsən mən televiziyaya baxmıram. Eyni zamanda mən telefonu sadəcə zəng üçün istifadə edirəm, qalan heç bir şeylə maraqlanmıram. Onunla belə televiziyaya baxmıram. İndiki zamanda uşaqların beyinləri, tərbiyələri pozulub. Halhazırki uşaqlara dünya tapşırılırsa axırı yoxdur, çox tez dağılacaq. Özümdə iki uşaq var və bütün günü ancaq televiziyada ”youtube”a baxırlar. Telefonlarını da əlindən almışam, lakin olanda da ancaq mobil oyunlar oynayırlar. Uşaqların qulaqları, gözləri və rəngləri qızarır, amma əl çəkmirlər. Elə şeylər paylaşırlar ki, düzdü onlar bizə maraqsız gəlir, ancaq uşaqlara maraqlı gəlir. Uşaqlara bunu təbliğ etmək düzgün deyil. Onlara elmi, zəhməti, təmizliyi təbliğ edərlər. Sovet vaxtında bunlar yox idi. Yadımdadır bizə seriallara baxmağa belə icazə vermirdilər. Ancaq dərs oxuyurduq, uşaqlarla həyətdə oynayırdıq. Amma indiki uşaqlar gör nələrə baxır. Əlbəttə ki elə şeylərə baxıb maraq göstərirlər ki qalan nəyəsə maraq qalmır. Həmçinin uşaqların beyinləri dolur. Çox yaxşı olar ki, dövlət bu barədə bir tədbir görsün. Uşaqlar bizim gələcəyimizdir, bəs bu halda gələcək necə olacaq? Məktəblərə telefon buraxmağa icazə verməsinlər, valideynlərə qadağa qoysunlar uşaqlarına telefon almağa, həmçinin uşaqların əlində telefon görsələr cərimə olunmalıdır. Uşaqlarda cəriməni bilib telefondan istifadə etməyəcəklər”.

**Şəhər sakini Veysəl Ağayev:** ”Televiziyada maraqlı heç bir şey yoxdur. Çox istərdim ki, ”Təhsil” adlı televiziya yaradılsın. Məktəbli uşaqlar üçün maraqlı proqramlar yaradılsın və onlara baxsınlar. Hal-hazırda hər şey əyləncədi, ona görə də insanlar qaçırlar. Sosial şəbəkəyə baxan hər insanı ora şamil eləmək olmaz. Təhsil və elm öyrənmək istəyən yəqin ki sosial şəbəkəyə baxmır. Hələ ora baxanlar əyləncəni yaxud bu tip veri-



lişləri sevirlər. Bunlar çox aktuallaşıb və həddən artıq çox belə verilişlər gedib. O tip verilişlərə baxanlar cəmiyyət üçün yararlı olmaz. Keçmişdə xüsusi proqramlar var idi ki, təhsilimiz və tariximiz haqqında danışırdı, lakin bunlar yoxdur. Şəxsən mən özüm maraq olmadığına görə televiziyaya baxmıram”.

**Şəhər sakini Səidə Diyarova:** ”Televiziyaya marağın azalması yəqin ki telefonun çıxması ilə bağlıdır. Ən balaca uşağın belə əlində hal-hazırda telefon var. Televiziyadan çox telefona üstünlük verirlər, ona görə sosial şəbəkəyə girmək daha çox aktivləşib. İndi televiziyada çox açıq-saçıqlıq var, əvvəllər köhnə seriallarımız gedərdi, amma onları



başqa tip filmlərlə və qeyri-etik sözlərlə əvəz ediblər. İnanmıram ki, bunların qarşısı alınsın. Hətta getdikcə bərbadlaşacaq. Buna müasirlik deyirlər, məncə müasirlik daha çox ənənəyə bağlanmaq deməkdir. Valideynlərin başı işə-gücə qarışır və uşağın əlinə saatlarla telefonu verirlər. Bunların qarşısı alınmalıdır”.

**Şəhər sakini Günel Seyidova:** ”Sosial şəbəkələrin yaranmasına görə televiziyaya maraq azalıb. Sosial şəbəkələrə tələbatın atması həm orada informasiyanın çox olması, həm də oradan gəlir mənbəyi kimi istifadə



edilməsidir. Əvvəlki dövrdə televiziya daha maraqlı idi, əlavə olaraq ”tiktok”, ”instaqram” yox idi. ”WhatsApp” isə tək-tük adamlarda var idi. İndi yeməyə çörək belə tapmasaq mütləq internet yükləyirik ki onsuz qalmayaq”.

**Şəhər sakini Sara Cəfərli:** ”Bəlkə də televiziyaya marağın azalması sosial mediadır. Hal-hazırda deyə bilərəm ki, insanların



çoxu sosial mediadan istifadə edirlər. ”İnstaqram”, ”tiktok”, ”twitter” kimi sosial şəbəkələr daha geniş yayılıb. Bu platformalarda elə şeylər paylaşırlar ki, istər-istəməz insanı cəlb edir. Amma televiziyada belə şeylər yoxdur. Məsələn, sosial mediada insanlar öz şəxsi həyatını paylaşa bilirlər və şəxsi olaraq da qalır, lakin televiziyada bu yoxdur. Ona görə də televiziyaya maraq azalır nəinki artmaq yerinə. Amma son vaxtlar çıxan ”Səriyyə”, ”Vətəndaş A” kimi filmlər məncə televiziyaya marağı artırır. Mən bu filmlərə baxmışam və hər kəsə baxmağı tövsiyyə edirəm. Köhnə vaxtda sosial şəbəkələr yox idi deyə biz televiziyaya üz tuturduq. Amma sosial media çıxdıqdan sonra biz çox şeyi unudub telefona yapışdıq. Mən bir gənc olaraq sosial medianın tərəfdarı deyiləm”.

**Şəhər sakini Mehrab Hüseynzadə:** ”Sosial şəbəkələrdən istifadə etmək gənclərdə televiziyaya marağı azaldır. Televiziyaya ən çox yaşlı nəsil maraq göstərir. Gənc nəsil isə ancaq çox geniş yayılmış ”tiktok”, ”instaqram” və s. proqramlara baxır. Yəni gələ-



cək zamanda inanmıram ki televiziyaya maraq qalsın. Yaşadığımız dövr sosial şəbəkə dövrüdür. Əvvəlki dövrdə internet, texnologiya inkişaf etmədiyi üçün televiziyalara baxırdı”.

**Şəhər sakini Nərmin Kərimova:** ”Halhazırda hər kəs sosial şəbəkələrdən istifadə edir. ”Youtube”da hər kəsə lazım olan serial, xəbərlər oradan izlənir. Sosial şəbəkələr çox operativdir və nə olsa anındaca orda paylaşılır. Keçmişdə bu zamana nisbətən hər şey maraqlı idi, telefonlar yox idi. Onda məcbur olub televiziyaya baxırdıq. İndi bir şey baş verən kimi insanlar telefonda nə isə axtarır.



Həm də keçmişdə texnologiya inkişaf etmədiyinə görə televiziyada vaxt keçirirlər”.

**Şəhər sakini Eldar Əliyev:** ”Televiziyada daha maraqsız şeylər verdiklərinə görə ona baxmırlar. Sosial şəbəkədə isə daha sürətli, keyfiyyətli, maraqlı şeylər verirlər. Dövlət televiziyalarında eyni standart söhbətlər,



məsələlərdir, camaat bundan bezib. Ona görə baxmırlar. Keçmişin televiziyasında nizam-intizam, qayda-qanun var idi. Camaat keçmişdə televiziyadan təlim-tərbiyə götürürdü. Əgər müasiriksə daha ağıllı, innovasiyalı verilişlər vermək lazımdır”.

***Xeyrənsə Piriyeva***

# “Azərbaycanda boşanmaların əsas səbəbkarları qadınlardır”

## Əməkdar jurnalist, sosioloq Mətanət Məmmədovanın SİA-ya müsahibəsini təqdim edirik:



***- Məlumdur ki, bugün cəmiyyəti düşündürən məsələlərdən biri məhz boşanmaların sayının durmadan artmasıdır. Sizcə, buna rəvac olan amil nələrdən ibarətdir? Çıxış yolları olaraq nə düşünürsünüz?***

- Bugün cəmiyyətimizdə boşanma hallarının çoxalması həqiqətən də çox kədərləndirici bir amildir və bunun bir neçə səbəbi var. Yəni, eyni səbəbdən deyil. Başlıcası odur ki, həyatımızda internet deyilən bir şey var və sosial şəbəkələrdəyik. 90-cı illərdən başlayaraq biz serial izləyirik.

Ötən ilin 10 aylıq statistikası açıqlandı və 37 minə qədər qurulan ailələrin 16 minə qədəri boşandı. Hər qurulan iki ailədən biri boşanır. Bu boşanmalara qədər ”biz hansı yollardan gəlmişik?”,”hansı problemlərlə üzləşmişik?”, ”biz niyə bugünə qalmışıq?”, ”biz niyə ailə institutunu dağıdırıq?”, ”niyə ailə dəyərlərimizin üzərindən xətt çəkirik?”. Həyatımızı qoymuşuq bir kənara, sosial şəbəkələri həyatımızın ən böyük başlıca amili etmişik. Sosial şəbəkələrdəyik, telefon əlimizdədir. Bunlardan bir saniyə də kənara çıxmırıq. Telefonu yerə qoyuruq, seriallara baxırıq. Baxdığımız seriallar çox təəssüf ki, öz ölkəmizin mentalitetinə, milli dəyərlərinə aid deyil. Başqa xarici dövlətlərin seriallarını izləyirik. Bu seriallarda bizə göstərilir ki, burada şahşahalı həyatlar var, qadınlı-kişili hər kəs bahalı maşınlar sürür, səhər yeməyini, günorta yeməyini, şam yeməyini bahalı yerlərdə yeyirlər, bahalı firmalardan paltarlar geyinirlər. Sanki şüurumuz çatmır ki, bu filmdir. Bu filmi çəkib aktyorlar pul qazanırlar, biz isə onlara baxıb özümüzü məhv edirik. Axı bu həyat deyil. Azərbaycanın gözəl dəyərli filmləri var. Onu anlamaq lazımdır ki, film həyat deyil. Bu kiminsə istehsal etdiyi bir filmdir və ondan pul qazanmaq məqsədi güdür və filmlərə də hansısa bir qüvvələr yatırım yatırır ki, insanların əxlaqlarını pozmaqdan yana, milli dəyərlərini zədələməkdən yana. Bunlara getməməliyik.

Azərbaycanda boşanmaların əsas səbəbkarları qadınlardır. Mən özüm qadın olsam da bunu deyəcəm. Bu bir faktdır ki, ailənin qorunması, bineyi-qədimdən ailə dəyərlərimizin başında bizim qadınlarımız hər zaman ailənin keşiyində duran olub, onun pozulmasına imkan yaratmayıb. Bugün qadına həyat yoldaşı deyir, ”çəkil o yana” və görürsən qadın məhkəmələrdən gəlir. Uşaqları da vurur qoltuğuna gedir məhkəməyə ki, mən həyat yoldaşımdan boşanıram. Nə üçün boşanırsan? Çünki həyat yoldaşı ona seriallarda gördüyü həyatı verə bilmir.

Sosial şəbəkələrdə o bəzi başdan xarab insanlar var ki, bloggerlər, aktyorlar, müğənnilər, aparıcılar, hamısının adını çəkmək istəmirəm bəzilərini deyirəm. Xüsusilə ictimai şəxslər orada çıxırlar şahşahalar təqdim edirlər, bahalı markalardan aldıqları paltarları açıb göstərirlər, gül dəstələri, ”mənə sevgilim bunu alıb” və s. Dubayın o saxta şokoladlarını açıqlayıb elan edirlər ki, ”görün bizə sevgilimiz nə alıb”. Bəzədilmiş maşın açarını göstərirlər. Bizim də bu şüursuz qadınlarımız həmin o oyunlara gedirlər. Yoldaşlarından onu tələb edirlər. Axı sən ailə quranda bilirdin ki, yoldaşının əməkhaqqı 1000 manatdır. Bu 1000 manat civarında sən onları necə edə bilərsən?! Bizim ailələrimizin boşanmasının əsas səbəbi ifratdır. Nizami Gəncəvi deyirdi ki, ”Bir inci saflığı olsa da suda, artıq içiləndə dərd verir o da” Baxın ifratçılıq, həddindən artıq ifrat sosial şəbəkələr, ifrat seriallar, ifrat göstərişlər həyatımızda hər şeyin ifratını görmək bizi bugünkü günlərə gətirib çıxarıb.

***- Boşanmaların sayının artmasının səbəblərindən biri də xəyanətlərdir. Əvvəllər kişilərin bu işə qol qoyduğu proseslər hazırda bir növ qadınların xislətinə köçürülüb. Siz bu barədə necə düşünürsünüz?***

- Baxın bir serialdır. ”Aşkı memnu” oturmuşuq evdə baxırıq. Mən də baxıram, qızım da baxır. Mənim müəyyən qədər yaşım, qızımın da 19-20 yaşı var. Mən o filmə baxıram onu başqa cür qavrayıram, Amma övladım başqa cür dərk edir.

Görün, nə hala gətirib qoymuşuq ki biz 150 illik tarixə malik olan mətbuatımızı sosial mediaya qurban vermişik. Mən bir ana kimi artıq hiss etməliyəm ki, bu buradan nələrisə qavrayır. Mən onun istiqamətini dəyişməliyəm, dəyişməsəm sabah ”Aşkı Memnu” filmindəki ”Bihtər” obrazında olacaq. Axı hər kəs övladı ilə birgə serial izləmir, işdə olur. Gənc qızlarımız izləyirlər və şüuraltına hopanlar zaman-zaman orada partlayış edir.

İndi gedək biz Türkiyəyə, və yaxud da Braziliyaya, Rusiyaya və bir küçə reportajı edək, sual verək. Sualımız ondan ibarət olacaq ki, ”Siz hansı Azərbaycan filmini izləyirsiniz?”. Orada bir nəfər desə ki, ”mən izləyirəm”, mən 35 illik jurnalistika fəaliyyətimin üstündən xətt çəkərəm və çəkilib kənarda dayanaram. Belə olan halda biz nə üçün Braziliya, Türkiyə, Rusiya seriallarını izləməliyik? Bizim televiziya məkanında nəzarət mexanizmi yoxdur. Bizdə rəqəmsal nəzarət yoxdur. Ona görə də cəmiyyətimizin sonu bundan da pisə doğru gedəcək. İnsanın beyni ətraf mühitdə formalaşır, xüsusilə gənclərimizin beyni ağ səhifədir. Ailələrimizdə, cəmiyyətimizdə ora nə yazırıqsa bir neçə ildən sonra oradan onu oxuyuruq. Biz hər an evdə olmuruq uşaqlarımız televiziyada seriallara baxırlar, axşama qədər sosial şəbəkələrdə olurlar.

***- Boşanmaların sayının artması müxtəlif üsullarla olur. İndiki reallıqlardan biri də gəlinlərin qaynana ilə bir yerdə yaşamaq istəməmələri ilə bağlıdır. Halbuki biz keçmişə nəzər salanda görürük ki, hər kəs bir ailə ocağında yığışardı, hətta gəlin bilmədiklərini qaynanasından öyrənərdi. Amma indi qızlar ailə qurmamışdan şərt kəsir ki, "Mən ailə qurandan sonra ayrıca evdə yaşayacam". Bu problemlərin kökündə nə dayanır?***

- Şəxsən kişi olsaydım və hansısa bir qadın mənimlə şərt kəssə ki, ”Mən sənin ananla yaşamaq istəmirəm”, heç onunla ailə qurmazdım. Mən düşünərdim ki, bu normal insan deyil. Ən azından utanmaq adında bir şey var. İnsanın abrı, ləyaqəti olmalıdır ki, ağzına aldığı sözü birinci qulağı duysun, sonra ağzından çıxarsın. Belə olan halda sabah o ailə boşanarsa, mən ona təəssüf etmərəm. Çünki sən vaxtında özünü kişi kimi aparmamısan.

Qaldı ki ailələrin ailə içində yaşaması bizim bineyi-qədimdən qayınana-gəlin münasibətləri olub. Bu münasibətlərdə heç vaxt sülhə gəlməyib, problemlərin həlli düzəlməyibdir. Son zamanlar müşahidə edirəm ki, ailələr təklikdə yaşayanda onların problemləri bir o qədər olmur. Bu o demək deyil ki, sən uşaq evlənəndə aparıb başqa bir evə qoyasan, gəlib oturasan öz evində ki onlar ayrıdı. Xeyr, belə deyil. Valideyn ailənin haradasa 5-6 il təkmilləşməsi üçün həmin dövrlərdə əziyyət çəkməlidir. Ailədə olan problemlərlə maraqlanmalıdır. Ayrı yaşamaq faydalıdır. Amma şərt qoymamaq şərtilə. Məsələn, ailə qurub qayınananın yanında 3-5 il qalarsan. Sonra yoldaşının imkanı yaxşılaşar və ev alar. Ailə üstündə ailə olmaz. Onun da başqa problemləri olar.

Mənim oğlum ayrı yaşayır. Onlar bizə gələndə evdəki vəziyyəti görürəm və düşünürəm ki, biz bir yerdə yaşasaq, mən dinməyəcəm, amma içimdə xəstə olacam. Bizim yaşımız istirahət tələb edir. Bu bizdən asılı deyil. Zaman bizə diktə edir ki, sən istirahət etməlisən. Mən istirahət etmək istəyirəm, amma uşaq oynamaq istəyir, çığırır, bağırır. Onun valideynləri uşaq böyütmək yaşındadır. Ona görə də mən düşünürəm ki, qaynana-gəlin problemini həll etmək üçün müəyyən qədər ailələr ayrı yaşamalıdır. Amma valideynlərin nəzarəti ilə yaşamalıdırlar.

Mən o kişini kişi hesab etmirəm ki, əgər hansısa bir qız sənə deyirsə, ”Mən sənin ananla bir yerdə yaşamaram”. Bunlar mənim öz qızıma da aiddir. Deməli, mən qızıma düzgün tərbiyə verməmişəm. Əslində, mən də ürəyimin hansısa bir küncündə istəyərəm ki, qızım ayrı yaşasın. Amma onu mən qızıma diqtə etmərəm ki, sən hökmən bu iddiada ol və evlənəceyin oğlana da belə denən. Çoxsaylı analar var ki, nəinki onu qızına diktə edir, hətta elçilik prosesində iddia edir ki, mənim qızım sənin ilə yaşaya bilməz. Mənim qızım ayrı yaşamalıdır. Ailə qurulmamış artıq konfliktlər başladı. Bunun da sonu təbii ki boşanmalara gətirib çıxarır.

***- İndiki zamanda boşanmalar bəzən asan qazanc prinsipinə yönəlik olur. Bu yanaşma doğrudur?***

- Aliment boşanan tərəfin əmək haqqının bir uşaq üçün dörddə biridir, 2-3 uşaq üçün üçdə biridir, 2-3 uşaqdan sonra da yarısıdır. Ondan sonra da uşaqlar üçün istehlak bazarına uyğunlaşır. Burada elə böyük bir məbləğ yoxdur. Amma bizim o cılız düşünən qadınlarımız o cılız məbləğlə də qənaətlənirlər ki, gedim bir ev tutum ən azından bu evin kirayə pulunu mən bununla verim.

Bizdə ötən ilin boşanmaları ən çox hansı regionumuzda baş verir? Əsas bu məsələlərə toxunmalıyıq. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi var. O artıq bugün çoxdan gedib Naftalanda oturmalıydı, işlərə başlamalıydı. Bizdə boşanmaların ən çoxunu Naftalan şəhəri təşkil edir. Sonra keçir Bakının ayrı-ayrı regionlarına ki Yasamaldır, Xətai rayonudur. Onları regionlar üzrə öyrənmək lazımdır. Burada nə baş verir? Əsasən bu dəqiqə boşanmaların çoxu Bakıdadır. Bir də Naftalan rayonu 1-ci yerdədir. Araşdırma aparmaq lazımdır ki, bu nə səbəbdəndir? Naftalanda nə baş verir ki, insanlar bu qədər boşanır? Eləcə də Bakıda. Mən düşünürəm ki, hökmən ailə məhkəməsi yaradılmalıdır. Bütün bu ailə məsələləri boşanmaya gedib çatana qədər aydınlaşdırılsın, tövsiyələr verilsin, işlər görülsün.

***- Nişanlı vaxtı yaxşı maskalanmağı bacarırlar, ya da elə boşanmaq üçün evlənirlər. Bu barədə fikirləriniz hansı yöndədir?***

- Mən düşünürəm ki, istər ər-arvad, istər valideyn-övlad, istər qayınana-gəlin, istərsə də qayınana-kürəkən olsun məsafə olmalıdır. Hər bir insanın arasında məsafə olmalıdır. O məsafə pərdədir. Nə gəlini o qədər şımartmalısan, nə kürəkəni, heç övladını da. Mən qızımı nə üçün o qədər şımartmalıyam ki, o sonra istədiyi kimi geyinsin, istədiyi kimi danışsın. Düzdür, fikri var. Amma elə fikri də var ki, mən deyirəm, saxla, sən dayan, sən nə danışırsan. İstər oğlum, istər qızım olsun bu belədir. Bütün şüurlu valideynlər belə edirlər. O pərdəni gözləməlisən və çalışmalısan ki, o pərdəyə bir qələm toxunuşu qədər bir toxunuş düşməsin, açılmasın. O açılsa böyüyə-böyüyə gedəcək.

Qaldı o 3 il nişanlı olub 3 ayda boşananlara. Ötən il bizdə min nəfərə yaxın 60 yaşdan yuxarı adamlar boşanıblar. Gör, onlar neçə il bir ailədə qalıb sonra boşanıblar. Həqiqətən bizim cəmiyyətdə anormal bir situasiya var. Düşünürsən ki, 60 yaşdan yuxarı insan niyə bir-biri ilə boşansın? Deməli ki, problem olanda olur və problemə də hər kəs öz şüuru, dünyagörüşü ilə yanaşır. Ona görə də istənilən şəraitdə onlar boşanmağa qapılarını aça bilirlər.

***Ayşən Vəli***



# Novruzun ilk çərşənbəsi fevralın 25-nə təsadüf edəcək

Novruzun ilk çərşənbəsi fevral ayının 25-nə təsadüf edəcək. SİA xəbər verir ki, Su çərşənbəsi fevralın 25-i, İlaxır çərşənbə-Torpaq çərşənbəsi isə martın 18-i olacaq. Belə ki, fevralın 25-də ilk - Su çərşənbəsi, martın 4-də Od, martın 11-də Yel, martın 18-də isə İlaxır çərşənbə - Torpaq çərşənbəsi qeyd olunacaq. Qeyd edək ki, yaz fəslinin Azərbaycana daxil olması martın 20-si Bakı vaxtı ilə saat 13:01:25-ə təsadüf edəcək. Bu zaman gecə ilə gündüz bərabərləşir və Günəş düz şərqdə doğub, qərbdə batır.

Günəş ekliptika üzrə hərəkət edərək, ekvatoru kəsib Cənub yarımkürəsindən Şimal yarımkürəsinə keçir. Həmin andan Şimal yarımkürəsində yaz, Cənub yarımkürəsində isə payız fəsli başlayır. Yaz fəslinin uzunluğu 92 gün 17 saat 40 dəqiqə 46 saniyə olacaq. Xatırladaq ki, Nazirlər Kabinetinin müvafiq qərarı ilə bu il üçün Azərbaycanda martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı kimi müəyyən olunub. Martın 23-ü və 24-ü şənbə, bazar gününə təsadüf etdiyindən ardıcıl olaraq 20, 21, 22, 23, 24, 25, 26 mart qeyri-iş günləri olacaq.

***Biz könüllü köləlik dövründə yaşayırıq. İndi hamımız real yox, virtual dünyanın sakinləriyik. Çünki virtual dünyaya girdikdən sonra onun reallığı sizin reallığınıza çevrilir. Beləliklə, virtual dünya real həyatımıza nüfuz edir və bizi ssenarisini özü yazdığı tamaşanı nümayiş etdirən teatr kuklalarına çevirir.***

# Süni intellekt insan zəkasına qalib gəlsə...










## Virtual dünyada insan qalmaq çətinləşir

Hamının əlindəki telefona, qarşısındakı kompyuterə baxdığı bir dövrdə heç kim real fikir mübadiləsi aparmır, ənənəvi yolla sosiallaşmır. Ancaq bizi insan edən şeylərdən biri də məhz sosiallaşmaq, ünsiyyət saxlamaq, münasibət qurmaqdır. Əks halda robotdan nə fərqi olar ki insanın?

Texnologiyanın zərərli təsirləri, təhlükələri, faydaları - bütövlükdə insan həyatına təsiri danılmazdır. Bəs bu təsir bizə nə verir, bizdən nə alır? Hər gün bir az da nəhəngləşən virtual dünya insanı insane olmaqdan bir az da uzaqlaşdırır. Bu sualın cavabına amerikalı psixoloq, zəka nəzəriyyəçisi Hovard Qardner deyir: "Bu virtual dünya gələcəkdə həyatı asanlaşdıra bilər, lakin insan qalmaq o qədər də asan olmayacaq. Bəlkə kompüterlər və süni intellekt bizə kömək edəcək, bəlkə də əksinə, bizi insanlıqdan uzaqlaşdıracaq. İnsan qala bilmək, yaxşı işlər görmək insanlar üçün o qədər də asan olmayacaq".

Yaxın gələcəkdə insanlar kompyuter və süni intellekt vasitəsi ilə başqa bir insanın beynini oxuya biləcək, fikirlərini anlayacaq. Üstəlik bu tək insanlara tətbiq edilməyəcək, heyvan beynindən gələn siqnallar da oxunmağa çalışılacaq. Süni intellekt daha da yaradıcı və ağıllı olacaq. Bütün bunlar yəqin ki, insan zəkası ilə müqayisədə uçurum yaradacaq. İnsanlar kədərlənəndə, acıqlananda, kompleks edəndə keçirdiyi hissləri süni intellekt hələ ki ifadə edə bilmir, amma yaxın gələcəkdə bunun baş verməyəcəyinin qarantı yoxdur. Yəni bizi hələ çox dəyişiklik gözləyir.

## Süni intellekt işimi əlimdən ala bilərmi?

Süni intellektin bir çox peşədə insanları əvəzləyəcəyi ehtimalı çoxdandır ki, var idi. Yaxın gələcəkdə süni intellektin veb-dizayner, loqo dizayneri, satış nümayəndəsi və auditor kimi peşələrdə insanları tamamilə əvəz etməsi də mümkündür, indi biz bunun nisbətən sadə imkanlarla tətbiqini görürük. Təbii ki, bunun birdən-birə baş verəcəyini gözləməməliyik. Çünki bəzi vərdişlər hələ dəyişilməyib, insan yerinə robotu qəbul etmək cəmiyyət üçün o qədər də asan olmayacaq. Lakin bir vaxtlar banka getmədən əməliyyatlar da mümkün deyildi, amma indi bir mobil tətbiqlə bütün bank əməliyyatlarımızı edə bilirik.

Süni intellekt həyatımızı asanlaşdırmaq üçün bir çox imkanlar təqdim etsə də, özü ilə bir çox riskləri də həyatımıza daxil etdi. Xüsusilə də iş dünyasında süni intellektin görə biləcəyi saysız-hesabsız işlər insanın əlindən alına bilər. ABŞ-da aparılan yeni bir araşdırma gələcəkdə insanları süni intellektlə əvəzləyəcək bir çox peşə sahibini narahat etdi. Maraqlıdır, süni intellekt hansı peşə sahiblərinin çörəyinə bais olacaq?

Süni intellekt vasitələrinin yalnız insanların edə biləcəyi düşünülən mürəkkəb tapşırıqları yerinə yetirmək qabiliyyəti heyranedicidir. Son aylarda mediada süni intellektin imtahan verdiyi və yaxşı bal topladığı, proqram təminatı istehsal etdiyi və bəzi həssas məsləhətlər verdiyi xəbərləri də yayıldı. Üstəlik, süni intellektin bacardığı sahələrin siyahısına hər gün yenisi əlavə olunur. Texnologiyanın bu qədər inkişafı, süni intellektin hazırkı performansı bəziləri üçün qorxulu sual da doğurur: Süni intellekt mənim işimi əlimdən ala bilərmi?

## 20 peşə təhlükədədir

ABŞ-ın Prinston Universitetinin araşdırması süni intellektin insanları əvəz edə biləcəyi 20 peşəni açıqlayıb. Peşələr arasındakı ən birinci yerdə çağrı mərkəzi operatorudur. Süni intellektin operatorluğu hətta insandan daha yaxşı bacardığı iddia edilir. Əslində, bir çox şirkətin bu iş üçün indi də süni intellektlə dəstəklənən "chatbot"lardan istifadə etdiyini nəzərə alsaq, bu nəticə təəccüblü deyil.

Tədqiqatçılar əvvəlcə 800 adda iş yerinin süni intellekt tərəfindən avtomatlaşdırıla bilmə dərəcəsini ölçən bir alqoritm yaratdılar. Bu prosesdə tərcümə, dil modelləşdirmə və görüntü yaratma kimi funksiyaları olan 10 süni intellekt dəstəkli proqram vasitəsi ilə başa salma və reaksiya vermə kimi özəlliklər əsas götürülərək süni intellektlə insan arasında müqayisə aparıldı. Nəticədə iş yükünün böyük hissəsinin süni intellekt texnologiyası tərəfindən həyata keçirilə biləcəyi ən yaxşı 20 iş müəyyən edildi. Bunların bir çoxu aktuar hesabat, büdcə təhlili, mühasibatlıq və hakimlik də daxil olmaqla əsaslı təlim tələb edən işlərdir.

## Süni intellektin ilk hədəfi müəllimlərdir

Süni intellektin öz üzərinə götürəcəyi işlər siyahısında ən çox müəllim peşəsi yer tutur. Xarici dilləri, fəlsəfə və dini, siyasi elmləri, psixologiyanı, coğrafiyanı, sosial elmləri, hərbi hazırlığı, tarixi, hüquq elmlərini tədris edən müəllimlər, etnik və mədəni araşdırma edən araşdırmaçılar, kitabxanaçılar işi əlindən alınacaq ilk insanlar olacaq.

Müəllimlik peşəsinin məşğulluq potensialının əvvəlki qədər yüksək olmaya biləcəyini ehtimal edən araşdırmaçılar hesab edir ki, müəllimlik özlərini təkmilləşdirmək istəməyən peşələrdən ən birincisidir. Amma imkanların bərabər olmadığı mühitdə müəllim özünü nə qədər təkmilləşdirsə də, nəticə istədiyi kimi olmur - ya məhdud imkanı olur, yaxud da təkmilləşməsi ona əlavə gəlir vermir. Süni intellekt isə öz xidmətini təklif edərkən sizə tez öyrənmək, rahat təkrarlamaq, anlamadığınız mövzularda əlavə mənbələrə əlçatanlıq və ya həmin mənbələrin xülasəsini oxumaq şansı verir.

Süni intellekt müxtəlif şirkətlərdə satış, marketinq və ünsiyyət kimi prosesləri öz üzərinə götürməyə başlayıb. Süni intellektdən istifadə etmək istəyənlərin qarşısında iki yol olacaq. Biz ya onun imkanlarından istifadə edərək bacarıqlarından üstün bacarıq göstərib yaradılışın ən zəkalı varlığı olduğumuzu sübut edəcəyik, ya da ona təslim olub bacarıqlarımızı əlimizdən verəcəyik.

## Həm faydalı, həm təhlükəli

Qeyd edək ki, süni intellektin insan həyatına böyük üstünlüklər və rahatlıq gətirəcəyinə dair yanaşmalar da var. Bu texnologiyanın iş həyatına müsbət təsirlərini sadalayan bu cür yanaşmalarda bildrilir ki, süni intellekt iş proseslərində səmərəlilik, edilə biləcək səhvlərin azaldılması, müştəri təcrübəsinin təkmilləşdirilməsi, peşə olaraq yeni imkanların inkişafı, problemin həllinə yanaşmaların təkmilləşdirilməsi, daha yaxşı alqoritm yanaşması kimi imkanlar verəcək.

İnsanlar sürətlə virtuallaşdıqca fərqində olmadan gələcəkdə öhdəsindən gələ bilməyəcəkləri bir rəqib yetişdiriblər. İnsan faktoru olmadan zəkanın fövqəlbəşəri səviyyədə təqdim edilməsi insanın uğurudur. Bununla belə, süni intellektin yaxın gələcəkdə zərərli məqsədlər üçün istifadə oluna biləcəyi ehtimalı da narahatlıq doğurur. Ümumiyyətlə, süni intellektin mənfi təsirlərinim ümumiləşdirsək bura texnologiya və avtomatlaşdırma səbəbindən insanlar tənbəl olacağını, işsizlik səviyyəsinin artmasını, hazır bilgidən istifadə etdicə insanın yaradıcılığının azalacağını, insani hiss və duyğuların texnoloji üstünlüyə məğlub olmasını, süni neyroşəbəkələrdən istifadə edərək mövcud videodakı şəxsin başqasının ilə əvəzlənməsini və bunun nəticəsində fırıldaqçılıq, aldatma, cinayət hallarının artmasını aid eləmək olar.

İdrak qabiliyyətimizi, məhsuldarlığımızı, yaradıcılıq bacarımızı çox az göstərdiyimiz yaxud heç göstərə bilmədiyimiz bütün işlər bir gün süni intellektə keçəcək. Ancaq bu transfer prosesi ictimaiyyətin qəbula görə uzun və ya qısa olacaq. Başlanğıcda insan əvvəlcə müqavimət göstərəcək, lakin sonra maşınla əməkdaşlıq edəcək. İnsan əvvəlcə onu yenidən öyrənməyə məcbur edəcək və onu rahatlıq zonasından çıxaracaq hər şeyə qarşı müqavimət göstərir və üsyan edir.

Dünya dəyişmək uğrunda amansız bir mübarizə aparır. Hər gün yenilənir, "refresh" olur. Ümid edək hər şey yaxşılığa doğru dəyişəcək. Həyata davam edə bilməyimiz üçün virtual aləmə ayaq uydurmalıyıq. Əgər virtual dünya real dünyaya qalib gəlsə heç nə indiki kimi olmayacaq.

***Lalə Mehralı***

# Bütün dünya erməni vandalizminə məruz qalan torpaqlarımızda canlanmanın şahididir

## Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərinə 2020-ci ildən başlayaraq ümumilikdə 22 milyard manata yaxın, o cümlədən 2025-ci ildə 4 milyard manat vəsait ayrılıb

***Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafı Azərbaycan dövləti üçün ən prioritet məsələdir. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması üçün büdcədən vəsait ayrılması Vətən müharibəsindən sonra daim diqqətdə saxlanılıb. Prezident İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə Azərbaycan xalqına müraciətində bəyan etdi ki, 2024-cü ili uğurla başa vururuq və qarşıya qoyulan bütün məsələlər öz həllini tapıb. Ən mühüm uğurlardan biri şübhəsiz ki, ötən il Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı işlərin uğurla getməsi olub: "Artıq 10 minə yaxın keçmiş məcburi köçkün bu torpaqlara qayıdıb, onlar üçün ən gözəl şərait yaradılıb. Bütövlükdə isə azad edilmiş ərazilərdə 30 mindən çox insan yaşayır, çalışır, işləyir - həm yeni açılmış müəssisələrdə, sosial obyektlərdə, inşaat işlərində. Gələn il təbii ki, oraya qayıdacaq vətəndaşların sayı böyük dərəcədə artacaq".***



Dövlətimizin başçısının işğaldan azad olunmuş rayonlara mütəmadi səfərləri xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır. Bütün dünya 30 ilə yaxın erməni vandalizminə məruz qalan torpaqlarımızda canlanmanın və məskunlaşmanın şahididir.

2024-cü ildə də Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərləri bir sıra vacib layihələrə start verilməsi və əhəmiyyətli layihələrin reallaşması ilə yadda qaldı. Dövlət başçımızın Qarabağa və Şərqi Zəngəzura hər səfəri zamanı yeni müəssisələrin təməli qoyuldu, hazır olanların isə açılışları edildi.





İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunması, Prezident İlham Əliyevin Sərəncamı ilə"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi, qəbul olunmuş digər sənədlər, həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edərək dövlətimizin Qarabağın və Şərqi Zəngəzurun dirçəlişində, əhalinin dayanıqlı məskunlaşmasında və davamlı iqtisadi inkişafın təmin olunmasında məqsədyönlülüyünün göstəricisidir. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yol infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən layihələr çərçivəsində tunellər və körpülər inşa edilir, polad magistrallar çəkilir, bütün elektrik təsərrüfatı yenidən qurulur.



Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan yaşıl enerji layihələri regionun davamlı inkişafını təmin edəcək digər sahələrin də inkişafına təkan verir. Bu baxımdan yeni yaradılan Qarabağ Universiteti də şübhəsiz ki, regionda tarixən mövcud olmuş təhsil mühitini yenidən canlandıracaq. Qarabağ Universiteti yenilikçi bir iqtisadiyyatın əsas lokomotivlərindən olmaqla yanaşı, ölkənin elmi və texnoloji inkişafına təsir göstərməsi, innovasiya sahəsində mövqeyini gücləndirməsi, yüksəkixtisaslı kadrların hazırlanmasında və sosial-iqtisadi siyasətin həyata keçirilməsində mühüm rol oynayacaq.

Azərbaycan işğaldan azad edilmiş ərazilərdə yalnız öz iqtisadi gücünə arxalanaraq böyük işlər görür. Azad edilmiş ərazilərdə beynəlxalq hava limanlarının istifadəyə verilməsi isə Böyük Qayıdış Proqramının daha da sürətlənməsini təmin edir. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərinə 2020-ci ildən başlayaraq ümumilikdə 22 milyard manata yaxın, o cümlədən 2025-ci ildə 4 milyard manat vəsait ayrılıb.

2026-cı ilin sonunadək Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağa və Şərqi Zəngəzura 140 min insanın köçürülməsi planlaşdırılır. Bu fakt ölkəmizin ildən-ilə artan iqtisadi gücünün daha bir əyani göstəricisidir. Hazırda Qarabağda və Şərqi Zəngəzurda həmin ərazilərə köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgələrdə reallaşdırılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə 30 minə yaxın insan yaşayır.

***Şəmsiyyə Əliqızı***

# Rusiyalı ekspert: "Fransanın Ermənistanı silahlandırması ermənilər üçün olduqca acınacaqlı bitə bilər"

## Sergey Borovikov: "Qərb müstəsna olaraq Cənubi Qafqazda sabitliyin pozulmasında maraqlıdır, nəinki uzunmüddətli nizamlanmada"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*












***Transsərhəd Əməkdaşlıq Assosiasiyasının aparıcı analitiki, rusiyalı ekspert Sergey Borovikov "Caliber" analitik mərkəzinə müsahibəsində Cənubi Qafqazdakı vəziyyət, Qərbin Ermənistanı silahlandırması və sülh razılaşmasına mane olan səbəblər haqda fikirlərini bildirib. Müsahibəni oxucularımızın nəzərinə çatdırırıq.***

***- Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması prizmasından 2024-cü ili necə qiymətləndirirsiniz?***

- Ötən il Azərbaycanın siyasi, inzibati və hüquqi məkanda hərbi qələbəsini möhkəmləndirmək cəhdləri ilə yadda qaldı ki, bu da təbiidir. Amma təəssüf ki, Bakı ilə İrəvan arasında münasibətlərin tənzimlənməsi cəhətdən heç bir köklü dəyişiklik gətirmədilər.

***- Fikrinizi tamamlayacam. Ermənistanın Azərbaycana ərazi iddiaları ehtiva edən konstitusiyasına dəyişiklik etməkdən imtina etməsi səbəbindən Ermənistan-Azərbaycan nizamlanmasında sıçrayış baş vermədi.***

-Mən güman edə bilərəm ki, bunun arxasında 3 amil dayana bilər. Birincisi, Birinci Qarabağ Müharibəsindən sonra Azərbaycan 30 il ərzində Ermənistanın Konstitusiyasına düzəlişlər tələb etməyib, ərazilərini qaytardıqdan sonra bunu tələb edib. Görünən odur ki, Ermənistan da oxşar məntiqdən çıxış edir və ümid edir ki, otuz-qırx ildən sonra nəsə dəyişə bilər, kobud desək, "baxın, biz buna necə cavab verəcəyik" prinsipi ilə. Ona görə də bundan narahat olmamalısınız.

İkincisi, konstitusiyaya dəyişiklik edilməsinin özü həmişə kifayət qədər mürəkkəb bürokratik prosedurdur, səsvermə və düzəlişlərin hazırlanması tələb olunur, bundan sonra şübhəsiz ki, narazı insanlar olacaq. Bu, istər-istəməz Ermənistanda Nikol Paşinyanın qeyri-populyar addımları və əməlləri ucbatından onsuz da ağır olan siyasi vəziyyəti sarsıdacaq.

Üçüncüsü, Qarabağ heç vaxt Ermənistanın əsas hüquqi konstitusiya sferasına daxil edilmədiyinə görə, onların konstitusiya ilə qaranlıq tarixçəsi olduğundan ermənilərə bu, həqiqətən də lazım deyil. Deməli, ermənilər bu məsələ ilə təkcə bu il deyil, uzun müddət məşğul olacaqlar.

***- Yəni 2025-ci ildə Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanması şansı minimaldır?***

- Fakt budur ki, müasir dünyada münaqişəli ölkələr arasında sülh müqaviləsinin olmaması prinsipial olaraq məcburi element deyil. İkinci Dünya Müharibəsindən sonra SSRİ və Yaponiya heç vaxt sülh müqaviləsi bağlamadılar, lakin bu, onların 50 il ərzində qarşılıqlı əlaqəsinə mane olmadı. Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasına gəlincə, mən buna şübhə ilə yanaşıram. Mənə elə gəlir ki, Ermənistan üçün bu, açıq şəkildə ictimai məkanda qaldırmaq istəmədikləri biabırçı hərbi məğlubiyyətlərinin bir növ təsbitidir.

Digər tərəfdən, müasir Ermənistanın baş sponsoru Fransa Ermənistan-Azərbaycan nizamlanmasında birmənalı olaraq maraqlı deyil, bu münaqişənin siyasi və ya hərbi formada davam edəcəyinə ümid edir. Müvafiq olaraq, Paris Ermənistanla Azərbaycan arasında sülhün bağlanmasını dəstəkləməyəcək.

***- Bəs buna görə Fransa Ermənistana aktiv şəkildə silah verir?***

-İnanıram ki, bu, Fransa və Rusiyanın təsir zonalarında olan qarşıdurmanın məntiqinə uyğundur. Rusiya Afrikada Fransanı layiqincə sıxışdırıb, ona görə də Paris Cənubi Qafqazda Moskvaya qarşı hansısa çirkin oyun qurmağa çalışır. Bütün bunlardan sonra Ermənistanın başına nə gələcək, bu, fransızları maraqlandıran son şeydir. Beləliklə, Ermənistanı Fransa silahları ilə doldurmaq İrəvan üçün çox pis hekayədir, çünki Paris regionun uzunmüddətli sabitliyinin pozulmasında maraqlıdır, bunun ermənilər üçün nəticələri olduqca acınacaqlı ola bilər.

***- Orta müddətli perspektivdə Ermənistan nəhayət Rusiyadan ayrılıb Qərbə üz tutmağa qərar verəcəkmi?***

-Mən bunu tamamilə qeyri-mümkün görürəm. Birincisi, ona görə ki, Qərb müstəsna olaraq Cənubi Qafqazda sabitliyin pozulmasında maraqlıdır, nəinki uzunmüddətli nizamlanmada. İkincisi, Qərb uzaqdadır, Ermənistan isə nəqliyyat-logistika cəhətdən yarımtəcrid vəziyyətindədir. Əslində Gürcüstanda vəziyyətin dəyişməsi Ermənistanın Qərb oriyentasiyası üçün zəif şanslarının olub-olmadığını açıq şəkildə göstərə bilər. Əgər Gürcüstanda qərbyönlü qüvvələr yekun məğlubiyyətə düçar olsa, o zaman Ermənistanın Qərbə üz tutmaq şansı olmayacaq.

***- Belə olan halda Ermənistan-Rusiya münasibətləri gələcəkdə necə inkişaf edəcək?***

- Çox güman ki, münasibətlər təbiətcə ləng olacaqlar. Hər halda Ermənistanda hakimiyyətdə qərbyönlü siyasətçilər oturduqca, Fransa, necə deyərlər, suyu bulandırdıqca, Ermənistan-Rusiya münasibətlərində irəliləyiş gözlənilmir.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
9 yanvar
2025-ci il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Qrip virusu Britaniyanı cənginə alıb - xəstəxanalarda yer tapılmır...



***Böyük Britaniyanın böyük xəstəxanaları qrip və digər tənəffüs yoluxucu viruslara yoluxmuş xəstələrin görünməmiş mövsümi axınının yaratdığı kritik vəziyyətlə üzləşirlər. Bu barədə "Times" qəzeti məlumat yayıb. Bəzi səhiyyə xidmətlərinin təcili yardım şöbələrində gözləmə müddəti 50 saata qədər ola bilər.***

"Səkkiz böyük xəstəxana son 24 saat ərzində təcili yardım şöbələrində mövsümi qriplə bağlı "mövsümi yüksək tələbat" səbəbiylə kritik vəziyyətlərin olduğunu bildirib və bir xəstəxana gözləmə yardımının 50 saat çəkə biləcəyi barədə xəbərdarlıq etdi", - nəşr yazıb.



## Telefon oğruları tutuldu

Binəqədi rayonu ərazisində mağazaların birindən 1000 manat dəyərində mobil telefonun oğurlanması barədə polisə məlumat daxil olub. Keçirilən tədbirlərlə hadisəni törədən əvvəlvər məhkum olunmuşlar E.Abdullayev və P.Ağayeva müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanılıb. SİA xəbər verir ki, paytaxtın Nəsimi rayonunda da analoji hadisə baş verib. Azadlıq prospektində yerləşən ticarət mərkəzlərinin birindən 4100 manat dəyərində mobil telefon oğurlamaqda şübhəli bilinən R.Heydərova da polis əməkdaşları tərəfindən müəyyən olunaraq saxlanılıb. Hər iki faktla bağlı araşdırma aparılır.

## Juninyo hansı kluba keçir - "Sevilya"ya, yoxsa "Flamenqo"ya?




"Qarabağ" klubunun braziliyalı hücumçusu Juninyonun "Sevilya"ya transferi dünyə düşüb. Bu barədə tanınmış insayder Fabritsio Romano sosial media hesabında məlumat yayıb. "Klublar arasında şifahi razılığa və tibbi müayinənin planlaşdırılmasına baxmayaraq, Juninyonun "Sevilya"ya transferi ilə bağlı problemlər yaranıb. "GonzaloTortosa"ya görə, müqavilə imzalanmaya bilər. Çünki "Flamenqo" futbolçuya daha yüksək maaş təklif edir".


## ELAN

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir

**Nəfəs və zərb alətləri kafedrası**
**Baş müəllim**

Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.
Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.

***Bakı şəhəri, Az-1014.***
***Ş.Bədəlbəyli küçəsi 98.***


# Etiketlərdən uşağımızı necə qoruyaq?



*PSİXOLOQ AÇIQLADI*

"Bilirik ki, etiket insanların məişətdə, ictimai yerlərdə, küçədə, müxtəlif rəsmi tədbirlərdə davranışını tənzimləyir. Hər bir mədəni insan əsas etiket normalarına riayət etməyi başa düşməklə yanaşı, müəyyən qayda və qarşılıqlı münasibətlərin zəruriliyini də dərk etməlidir. Və etiket qaydalarına hamı əməl etməlidir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Günel Allahverdiyeva deyib.

Onun sözlərinə görə, həyatda tez-tez utancaq, özünə qapanan uşaqlara rast gəlirik: "Tanımadıqları insanlar onlara suallar verdikdə o uşaqlar həmin suallara cavab vermirlər. Ətrafda olan insanların bu zaman onlara münasibəti: Aa adını bilmirsən? Sən necə utancaqsan? Sən necə kaprizni uşaqsan?".

Günel Allahverdiyeva sözlərinə belə davam edib: "Cəmiyyətdə belə hallarla tez - tez rastlaşırıq. Bu zaman həmin şəxslər o uşaqları etiketləyirlər. Uşağınız necə tərbiyəsizdir, nadincdir, necə aqressivdir və s. Bunları eşidən uşaqlar müəyyən zamandan sonra o etiketlənmiş sözləri həyatında qəbul etməyə başlayır.

Bunun əsas səbəbi ola bilsin ki, uşaqlar sual verən insanları tanımır, həmin insanın yanında özünü rahat hiss etmir, ona görə də salamlaşmır. Bir müddət keçdikdən sonra salamlaşacaq. Əsasən valideynlər buna diqqət etməlidirlər.Əgər valideynlər belə düşünsələr uşağın üstündəki etiketlənmiş sözü götürmüş olacaqlar".

***Ayşən Vəli***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**